# OĞUL BAYDENİN XİLASI

Co Baydenin səlahiyyətlərini təhvil verməsi ərəfəsində oğlunu əfv etməsinin ciddi tənqid hədəfinə çevriləcəyi əvvəldən aydın idi.

ABŞ Prezidenti Co Baydenin özünün qanunun aliliyini tapdaq altına salması istehza doğurur. Söhbət seçilmiş prezident Tramp demişkən, "yuxulu Co"nun həmin qanunun aliliyini qulaqardına vuraraq cinayət törətmiş oğlunu əfv etməsindən gedir.

2023-cü ildə oğul Baydenə qarşı konkret ittiham irəli sürülüb və məhkəmə qərarı qüvvədədir. İndi isə hakimiyyətlə vidalaşmaqda olan ata Bayden Hanteri ədalətin məngənəsindən qurtarmaq üçün əfv etmək qərarına gəlib.

SƏHİFƏ 4-də



'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi

ÜÇ ƏSRİN QƏZETİ

7 DEKABR ŞƏNBƏ 2024 № 47 (4198) Qiyməti - 40 qəpik www.kaspi.az






## İLHAM ƏLİYEV URSULA FON DER LYAYENİ TƏBRİK EDİB

Prezident İlham Əliyev xanım Ursula fon der Lyayenə təbrik məktubu göndərib. Məktubda deyilir: "Hörmətli xanım prezident, Avropa Komissiyasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi təbrik edirəm".

SƏHİFƏ 2-də



## AZƏRBAYCAN İPƏKÇİLİYİ TƏHLÜKƏDƏ

Azərbaycanda ipəkçilik sahəsində deqradasiya müşahidə edilir. Həm istehsal, həm də ixrac kəskin azalıb. Səbəb kimi urbanizasiya, mütəxəssis çatışmazlığı və dövlət dəstəyinin zəif olması göstərilir.

SƏHİFƏ 6-da



## "PUMA"DAKI TƏK AZƏRBAYCANLI

"Saytda "Puma"nın işçi tələbə axtardığını gördüm. Müraciətimdən bir saat sonra artıq həmin vakansiya mövcud deyildi. Vakansiya silinən kimi zəng etdilər ki, müsahibə prosesi üçün seçilmiş beş nəfərin biri də sənsən".

SƏHİFƏ 8-9-da

ERMƏNİSTANDAN DÖZÜMSÜZLÜK VƏ İRQÇİLİK NÜMUNƏSİ



# HƏLLİNİ GÖZLƏYƏN BÖYÜK ƏDALƏTSİZLİK

Azərbaycanlıların Ermənistandan məcburi köçürülməsi hələ də həll olunmamış böyük bir ədalətsizlik olaraq qalır. Halbuki qayıdış hüququ beynəlxalq hüquqda möhkəm şəkildə təsbit olunub və təməl insan hüququ kimi tanınır.

**51 ÖLKƏDƏN 200-DƏN ARTIQ İŞTİRAKÇI**

"Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" II beynəlxalq konfransı keçirilib. Konfransa aralarında parlament üzvləri, ictimai-siyasi xadimlər, vətəndaş cəmiyyəti fəalları və elm xadimləri olmaqla 51 ölkədən 200-dən artıq iştirakçı qatılıb.

**İRƏVAN ÖHDƏLİKLƏR QƏBUL ETMƏLİDİR**

Ermənistanın azərbaycanlıların qayıdışına imkan verməməklə üzərinə götürdüyü öhdəlikləri pozması araşdırılmalıdır. İrəvan soydaşlarımızın mülkiyyət hüquqlarını bərpa etməli, pozulmuş hüquqlara görə kompensasiya ödəməli, nifaq salan qurumları ləğv etməli, Qərbi Azərbaycan İcması ilə konstruktiv dialoqa başlamalıdır.

SƏHİFƏ 2-də

XÜSUSİ TƏDBİRLƏR PLANINA EHTİYAC VAR

## XARİCİ İNVESTORLAR TİKİNTİ SEKTORUNDA



Azərbaycanın tikinti sektoru xarici investorların diqqət mərkəzindədir. Hazırda daha çox Körfəz ölkələrindən olan iş adamları bu sahəyə sərmayə yatırmaqda maraqlı görünürlər. Ekspertlər bildirirlər ki, əslində pandemiyadan öncə də xarici investorların Azərbaycanın tikinti sektoruna marağı yüksək olub.

SƏHİFƏ 14-də



## SURİYADA QÜVVƏLƏR BALANSI DƏYİŞİR

Maraq toqquşmalarının yaşandığı Suriyada vəziyyət yenidən gərginləşib. Müxalif hərbi qruplaşmalar sürətlə yeni əraziləri ələ keçirirlər. Baş verənlər Türkiyənin regiondakı mövqelərini bir az da gücləndirir.

SƏHİFƏ 5-də



## 1 500 MƏKTƏBİ GÖZLƏYƏN REALLIQ

Şagird sayı yüzdən az olan məktəblərin gələcək taleyinin necə olacağı ilə bağlı nigaranlıq artır. Nazir vəd edir ki, söhbət yalnız məktəbin fəaliyyətinin dayandırılmasından getmir.

SƏHİFƏ 7-də



## MİOKARD İNFARKTINA APARAN SƏBƏBLƏR

Şahanə Ələsgərli: "Qış aylarında xəstə sayımız daha çox olur. Yayda qan təzyiqi normaya düşməyə başlayır. Bunun bir çox səbəbi var: biz tərlə maye itiririk, çox miqdarda su içirik".

SƏHİFƏ 13-də



Qərbin təhlükəli cığallığı

SƏHİFƏ 3-də



Əməyin ən yaxşı qiymətləndirildiyi sahə

SƏHİFƏ 12-də



Elektrikli keçidin riskləri

SƏHİFƏ 11-də



Qədim tramvaylar və qırmızı fasadlı binalar şəhəri

SƏHİFƏ 15-də



"Liverpul"da Slot erası

SƏHİFƏ 16-da

ÜÇ ƏSRİN QƏZETİ Kaspi





## İlham Əliyev Ursula fon der Lyayeni təbrik edib

Prezident İlham Əliyev Avropa Komissiyasının Prezidenti xanım Ursula fon der Lyayenə təbrik məktubu göndərib. Məktubda deyilir:

"Hörmətli xanım prezident,
Avropa Komissiyasının prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Azərbaycan ilə Avropa İttifaqı arasında iqtisadi-ticari, nəqliyyat-kommunikasiya, təhlükəsizlik, xüsusilə də strateji xarakter daşıyan və Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində vacib rol oynayan enerji sahəsində səmərəli tərəfdaşlıq əlaqələri mövcuddur.

Əminəm ki, Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığın qarşılıqlı hörmət və bərabər hüquqlar əsasında hərtərəfli inkişafı istiqamətində bundan sonra birgə səylər göstərəcəyik.

Sizə ən xoş arzularımı çatdırır, Avropa Komissiyasının yeni tərkibdə qarşıdakı fəaliyyətinə uğurlar diləyirəm".

İlham Əliyev, həmçinin, Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koştanı da təbrik edib.

Təbrik məktubunda deyilir:
"Hörmətli cənab prezident,
Avropa İttifaqı Şurasının prezidenti kimi fəaliyyətə başlamağınız münasibətilə Sizi təbrik edirəm.

Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlıq əlaqələri geniş gündəliyə malikdir və enerji, o cümlədən yaşıl enerji, nəqliyyat, ticarət və digər sahələri əhatə edir. Avropanın enerji təhlükəsizliyinin təminatında Azərbaycanın mühüm rolu danılmazdır.

İnanıram ki, Azərbaycan ilə Avropa İttifaqı arasında siyasi dialoqun, iqtisadi-ticari əməkdaşlığın və mədəni mübadilələrin qarşılıqlı maraqlarımıza uyğun olaraq bundan sonra da inkişaf etməsi, konstruktiv tərəfdaşlığımızın möhkəmlənməsi üçün birgə səylər göstərəcəyik.

Sizə qarşıdakı məsul fəaliyyətinizdə uğurlar arzulayıram".




# HƏLLİNİ GÖZLƏYƏN BÖYÜK ƏDALƏTSİZLİK

**Azərbaycanlıların Ermənistandan məcburi köçürülməsi hələ də həll olunmamış böyük bir ədalətsizlik olaraq qalır. Halbuki qayıdış hüququ beynəlxalq hüquqda möhkəm şəkildə təsbit olunub və təməl insan hüququ kimi tanınır.**

**F.ABASOĞLU**

Doğma yurdlarından qovulmuş soydaşlarımızın Qərbi Azərbaycana qayıdış hüquqlarının təmini məsələsi artıq beynəlxalq müstəvidə dünya ictimaiyyətinin diqqətinə çatdırılmaqdadır. "Qayıdış hüququ: Ermənistandan zorla çıxarılmış azərbaycanlılar üçün ədalətin təmin edilməsi" II beynəlxalq konfransı da bu istiqamətdə həyata keçirilən ardıcıl siyasətin davamı olaraq qiymətləndirilir. Qeyd edək ki, konfransa aralarında parlament üzvləri, ictimai-siyasi xadimlər, vətəndaş cəmiyyəti fəalları və elm xadimləri olmaqla 51 ölkədən 200-dən artıq iştirakçı qatılıb.

### "ERMƏNİSTAN MONOETNİK DÖVLƏTƏ ÇEVRİLİB"

Prezident İlham Əliyev rəsmi Bakının Qərbi Azərbaycan məsələsi ilə bağlı mövqeyini konfrans iştirakçılarına ünvanladığı müraciətdə bir daha açıqlayıb.

Dövlət başçısı bildirib ki, Azərbaycan xalqı ötən əsrin əvvəllərindən başlayaraq köçkünlük problemi ilə üzləşib: "Qərbi Azərbaycanda - indiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalaraq, tarixi vətənlərindən mərhələli şəkildə zorla çıxarılıblar. 1918-1921, 1948-1953 və 1987-1991-ci illərdə daha dəhşətli xarakter almış köçürmələr nəticəsində yüz minlərlə azərbaycanlı dədə-baba yurdunu tərk edərək Azərbaycana sığınıb. Bu dəhşətli deportasiyalardan sonra Ermənistanda bir nəfər belə azərbaycanlı qalmayıb və Ermənistan monoetnik dövlətə çevrilib". Azərbaycan Prezidentinin də müraciətindən göründüyü kimi, dünya ictimaiyyəti əslində bu faktı gözardı etməyə çalışaraq İrəvanı məsuliyyətdən yayındırır.

### DÖZÜMSÜZLÜK VƏ İRQÇİLİK NÜMUNƏSİ

Ermənistanın Qərbi Azərbaycanda törətdiyi vəhşiliklər bununla da yekunlaşmır. Prezident İlham Əliyevin də vurğuladığı kimi, Ermənistan Qərbi Azərbaycanda xalqımızın min illər ərzində yaratdığı mədəni irsi - tarixi abidələri, qəbiristanlıqları, məscidləri, tarixi yaşayış yerlərini dağıdıb, UNESCO tərəfindən ümumbəşəri mədəni dəyər kimi tanınan Azərbaycan aşıq sənətinə ciddi zərər vurub.

Regionun tarixini və mədəni mənzərəsini təhrif etmək, yenidən yazmaq məqsədi daşıyan belə destruktiv addımlar dözümsüzlük və irqçilikdən başqa bir şey deyil.






**Fotolar:** Əjdər İBARHİMOV- Global Photostock

### "BU, SIRF İNSAN HAQLARI MƏSƏLƏSİDİR"

Bakı ali rəhbərliyinin timsalında Qərbi Azərbaycan məsələsinin əsl məqsədinin İrəvanın iddia etdiyi kimi "Ermənistanın ərazi bütövlüyünə təhdid" yox, məhz hüquqları tapdalanmış soydaşlarımızın ləyaqətli geri dönüşünün təmini olduğunu bəyan edir. "Bu, sırf insan haqları məsələsidir", - deyə Prezident İlham Əliyev bildirib.

Dövlət başçısının bu açıqlaması konfransda çıxış edən beynəlxalq mütəxəssislər və ictimai xadimlər tərəfindən də birmənalı olaraq dəstəklənib.

Türkiyənin NATO Parlament Assambleyasında nümayəndə heyətinin rəhbəri, sabiq xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib ki, qərbi azərbaycanlıların tələbləri torpaq yox, insan haqları məsələsidir: "İcmanın fəaliyyəti beynəlxalq hüquqa tam uyğundur. Ermənistanın ərazi bütövlüyünə tam hörmətlə yanaşılsa da, rəsmi İrəvan səmimi müraciətlərə hələ də cavab vermir".

Türkiyəli deputat beynəlxalq ictimaiyyətin Azərbaycan xalqının məruz qaldığı zülmə səssiz qalması və əksinə, zülm edənə dəstək olmasından təəssüfləndiyini vurğulayıb.

### ERMƏNİSTAN RƏHBƏRLİYİNİN ATMALI OLDUĞU ADDIMLAR

Konfransın yekun sənədində də bildirilir ki, azərbaycanlıların Ermənistandan məcburi köçürülməsi hələ də həll olunmamış böyük bir ədalətsizlikdir. Qayıdış hüququ beynəlxalq hüquqda möhkəm şəkildə təsbit olunmuş və təməl insan hüququ kimi tanınır. Bu səbəbdən, Beynəlxalq Cinayət Məhkəməsinin prokuroru Ermənistanın azərbaycanlıların qayıdışına imkan verməməklə beynəlxalq hüquq və Roma Statutu çərçivəsində üzərinə götürdüyü öhdəlikləri pozmasını araşdırmalıdır. İrəvan qayıdış prosesində mülkiyyət hüquqlarını bərpa etməli, pozulmuş hüquqlara görə kompensasiya ödəməli, nifaq salan qurumları ləğv etməli, Qərbi Azərbaycan İcması ilə konstruktiv dialoqa başlamalıdır.

Bütün bunlar Ermənistan rəhbərliyinin atmalı olduğu addımların sadəcə çox kiçik bir hissəsidir. Qərbi Azərbaycana ləyaqətli qayıdış istiqamətində həyata keçirilən ardıcıl siyasət bundan sonra da davam etdiriləcək.

# QƏRBİN TƏHLÜKƏLİ ÇIĞALLIĞI

Avropa İttifaqı bütün vasitələrdən istifadə etməklə Gürcüstanda xaos yaratmağa çalışır. Özü korrupsiya yuvası və lobbi qruplarının oyuncağı olan Avropa Parlamenti Gürcüstandakı seçkiləri tanımadığını bəyan edən qətnamə qəbul edir.






AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

Parlament seçkilərindən sonra gürcü cəmiyyəti onlara vəd edilən "qərb cənnəti"nin əsl üzünü görməyə başlayıb. Xalqın iradəsi ilə növbəti dəfə iqtidarı əlində saxlayan "Gürcü arzusu" Qərbin siyasi mərkəzləri tərəfindən açıq hədəfə çevrilib. Bu gün Avropa dairələrinin rəsmi Tbilisiyə qarşı ritorikası şantaj və təzyiq üzərində qurulub. Gürcüstan rəsmilərinə qarşı sanksiyaların tətbiqi, Tbilisini müxtəlif qanunlara (xarici agentlər və ailə dəyərlərinin qorunması haqqında) görə daim tənqid etmək, parlament seçkilərinin demokratikliyinə və şəffaflığına şübhə ilə yanaşmaq, nəticələri tanımamaq, ikitərəfli görüşlərin ləğvi, üzvlüklə bağlı danışıqlardan imtina - budur Tbilisi-Brüssel münasibətlərinin mövcud reallığı.

Bəs hazırda müxalif qüvvələrin, daha doğrusu, uzun illər Qərbin maliyyəsi ilə bəslənmiş, onların maraqlarını müdafiə edən kütlənin etirazlarının qanuni əsası varmı? Qərb hansı mandatla Gürcüstanda baş verən proseslərdə bu dərəcədə canfəşanlıq göstərir və özündə müdaxilə etmək imtiyazını görür?

**GÜNAHKAR QƏRBDİR**

Öncə hazırda Gürcüstanda yaşanan mənzərəyə qısa nəzər yetirək. Etiraz aksiyalarını alovlandıran əsas səbəb Gürcüstan hökumətinin Avropa İttifaqına üzvlüklə bağlı danışıqları 2028-ci ilə qədər təxirə salmaq qərarıdır. Müxalifət bunu ölkənin avrointeqrasiya kursundan imtinası kimi dəyərləndirərək qərarın ləğvini, yeni seçkilərin keçirilməsini tələb edir. İqtidar isə beynəlxalq aləmdəki mövcud konyunkturada Tbilisinin Aİ-yə üzvlüklə bağlı danışıqlar mərhələsində alınacaq qərarların onun milli maraqlarına və digər dövlətlərlə əlaqələrinə mənfi təsir göstərəcəyini iddia edir. Əslində Aİ ilə münasibətlərin korlanmasının başlıca səbəbkarı elə Qərbin özüdür. Uzun illər danışıqlar adı altında prosesə imitasiya etmək, "hər şeyi ver, amma əvəzində heç nə tələb etmə" prinsipinin rəhbər tutulması gürcü cəmiyyətində avrointeqrasiya meyllərinin zəifləməsinə səbəb olub.

## SƏRBƏST SEÇİMİN "CƏZASI"

Digər tərəfdən, ölkənin milli kimliyini, ənənələrini heçə sayan, ailə institutunun dağılmasına səbəb olacaq gürcülər üçün qəbuledilməz qanunların qəbulu tələbi də bu məsələdə öz sözünü deyib. Parlament seçkiləri ərəfəsində iqtidarın təbliğat şüarlarından biri də məhz bu təhdidlərlə bağlı idi ki, gürcü xalqı mövcud hakimiyyətə yenidən səs verməklə Qərbin məlum tələblərinə də bir növ etirazını nümayiş etdirmiş oldu. İndi isə Qərb məhz bu seçimə görə gürcü xalqını və dövlətini cəzalandırmaq qərarına gəlib. Bir neçə ay əvvəldən başlayan təzyiq və şantaj dalğası daha ağır qərarlarla müşahidə edilir. Məsələn, özü korrupsiya, maliyyə fırıldaqlarının yuvası və lobbi qruplarının oyuncağı olan Avropa Parlamenti Gürcüstandakı seçkiləri tanımadığını bəyan edən qətnamə qəbul edir, iqtidarı "demokratik ənənələrdən uzaqlaşmaqda" ittihamlayır. Yaxud Aİ-nin Gürcüstandakı səfiri özünü aksiyaların ideoloqu kimi göstərir. Vaşinqton da Gürcüstanla strateji tərəfdaşlığı dayandırdığını bəyan edərək, Aİ-nin tezislərini təkrarlayır.




## BAKI DA HƏDƏFDƏDİR

Qərbin əsas planlarının Gürcüstan vasitəsi ilə Rusiyaya qarşı ikinci cəbhə açmaq, Cənubi Qafqazı da müharibə meydanına çevirmək olduğu heç kimə sirr deyil. Bölgənin müstəqil oyunçusu Azərbaycanla münasibətlərdə bu metodların heç bir nəticə vermədiyini görən Qərb mərkəzlərinin Gürcüstana yönəlməsi, əslində elə Bakını da hədəfə almaq məqsədindən irəli gəlir. Bölgənin əsas arteriya damarlarının keçdiyi bu ölkədə Qərbin sözəbaxan iqtidar qurmaq istəyi Bakının da müstəqil siyasi kursunu müəyyən çərçivəyə salmaq cəhdidir.

## Əziyyəti xalq çəkir

Bu proseslərdə ən çox əziyyəti isə sadə gürcü vətəndaşları çəkirlər. Gürcüstanın əsas gəlirlərinin məhz xidmət sektoru olduğunu yaxşı anlayan bu mərkəzlər iğtişaşların sönməsinə imkan verməməklə rəsmi Tbilisiyə qarşı cəmiyyətin digər kəsimlərini də ayaqlandırmaq istəyirlər. Statistik rəqəmlərə nəzər salsaq görərik ki, Milli Statistika Xidmətinin məlumatına əsasən, ötən ayın sonlarından, yəni iğtişaşlar başlayandan bəri Gürcüstanda sürətli inflyasiya qeydə alınmaqdadır. Bu, özünü daha çox turistlərin yerləşdirilməsi, spirtli içkilər, tütün məmulatları və təhsil qiymətlərində büruzə verir.

**QƏRB ÜÇÜN AZAD VƏ ŞƏFFAF SEÇİM ANLAYIŞI YOXDUR**

Son günlər Gürcüstanda baş verənlər bir neçə reallığı açıq şəkildə ortaya qoymuş oldu. Qərb üçün azad və şəffaf seçim anlayışı yoxdur. Yalnız onların maraqlarını diktə edən qüvvələrin hakimiyyətə gəlişi "demokratik seçim" sayılır. Qərb müstəqil, milli maraqlarının müdafiəsini üstün tutan dövlətləri özü üçün birbaşa təhdid sayır və hər vasitə ilə bu "təhdid"i ortadan qaldırmağı hədəfləyir. Bu proseslərdə əsas təkanverici qüvvə isə vətəndaş cəmiyyəti, insan haqları, demokratiya şüarları altında onların təlimatlarını yerinə yetirməyi qarşısına məqsəd qoyan QHT-lər sayılır. Milyonlar ayırmaqla onların vasitəsi ilə istər iqtidar, istərsə də müxalifət daxilində özünün dayaqlarını yaratmaq əsas hədəfdir. Məhz Qərbin maraqlarını təhdid edən hansısa addımlar atıldıqda bu qüvvələr bir təlimatla hərəkət keçir və ölkədə xaotik durum yaradılır. Azərbaycanın ali rəhbərliyinin uzaqgörən siyasəti nəticəsində ölkəmiz daxilində bu təhdidlər demək olar ki, ortadan qaldırılıb. Gürcüstan xalqının da müdrik seçim edərək öz siyasi iradələrinin arxasında dayanması ölkənin həqiqətən də müstəqil dövlət olmaq şansını əhəmiyyətli dərəcədə artıracaq. Buna nə dərəcədə nail olunacağını isə zaman göstərəcək.

BAYDEN ADMİNİSTRASİYASI ABŞ TARİXİNİN ƏN UĞURSUZ İQTİDARLARINDAN BİRİDİR

# OĞUL BAYDENİN XİLASI




**Co Baydenin səlahiyyətlərini təhvil verməsi əsnasında oğlunu əfv etməsinin ciddi tənqid hədəfinə çevriləcəyi əvvəldən aydın idi. Belə çıxır ki, çox vaxt özünü belə unudan ata Bayden hakimiyyətdən getməmişdən əvvəl ərkəsöyün oğluna son hədiyyəsini etməyi unutmayıb.**



RÜSTƏM QARAXANLI

Dövlət Departamentinin rəsmisi Vedant Patel Gürcüstandakı siyasi vəziyyəti şərh edərkən hökuməti qanunun aliliyini qorumağa çağırıb. Vaşinqton rəsmisi Gürcüstanda nümayişçilərə qarşı "hədsiz güc tətbiqi"ndən narahatlığını dilə gətirib. ABŞ-nin demokratlar administrasiyasının maraqlarına zidd davranan dövlətlərin hakimiyyətlərinə qarşı "qanunun aliliyi", "insan haqları", "əsas azadlıqlar", "jurnalistlərin təqibi" adı altında basqı etməsinə bütün dünya öyrəncəlidir. Polis zorakılığı, kriminal, qanunverici orqana sirayət etmiş korrupsiyanın tüğyan etdiyi bir dövlətin rəhbərliyinin digərlərinə siyasi etika dərsi keçməsinə artıq önəm verən də yoxdur.

### PAPANIN GÜL BALASI

Ancaq Vaşinqton rəsmisinin Gürcüstan hökumətinə "dərs keçmək" istədiyi bir vaxtda ABŞ-nin birinci şəxsi, prezident Co Baydenin özünün qanunun aliliyini tapdaq altına salması istehza doğurur. Söhbət seçilmiş prezident Tramp demişkən, "yuxulu Co"nun həmin qanunun aliliyini qulaqardına vuraraq cinayət törətmiş oğlunu əfv etməsindən gedir. Narkoman, əyyaş və tüfeyli həyat sürən Hanter Baydenlə bağlı cinayət işi 2018-ci ildən davam edir. Onun vergidən yayınma və qanunsuz silah saxlama maddələrinə əsasən cinayət törətdiyi bildirilir. 2023-cü ildə oğul Baydenə qarşı konkret ittiham irəli sürülüb və məhkəmə qərarı qüvvədədir. İndi isə ata Bayden Hanteri ədalətin məngənəsindən qurtarmaq üçün əfv etmək qərarına gəlib. Demokratlar administrasiyasının başında duran şəxs olduqca "demokratik" addım ataraq cinayətkara qarşı qanunun "aliliyi"nin necə təmin olunduğunu əyani nümayiş etdirib.

Baydenin qanuna həqarət olan bu qərarının ciddi tənqid hədəfinə çevriləcəyi əvvəldən aydın idi. Çox vaxt özünü belə unudan ata Bayden belə çıxır ki, hakimiyyətdən getməmişdən əvvəl ərkəsöyün oğluna son hədiyyəsini etməyi unutmayıb. Demokrat prezident addımına bununla haqq qazandırıb ki, "Hanter məhz onun oğlu olduğuna görə təqib edilir": "Ümid edirəm ki, amerikalılar ata və prezidentin niyə bu qərarı qəbul etdiyini anlayacaqlar". Şübhə yoxdur ki, anlayacaqlar, ancaq anlaşılmayan başqa məqamlar da var. Məsələn, eyni maddələrlə ABŞ-də cinayət törətmiş, yaxud qanunun tələblərindən gizlənmiş minlərlə amerikalı var və onların hamısı kimlərinsə övladlarıdır. Məntiqlə, onların da valideyinlərinin eyni əsasla övladlarının əfvini tələb etməyə haqları var. Bəyəm ABŞ hamının, o cümlədən prezidentlə sıravi amerikalıların bərabər hüquqlara malik olduğu ölkə deyil?

## TRAMPIN QİSASI

Baydenin cinayətkar oğlunu əfv etməsi gözlənildiyi kimi, respublikaçılar cəbhəsində hiddətlə qarşılanıb. Prezidentin ittiham olunan oğludur deyə qanunu pozması bir yana, seçilmiş dövlət başçısı Trampa qarşı irəli sürülmüş məhkəmə işlərinin hələ unudulmadığı bir vaxtda bunu etməsi xüsusilə maraqlıdır. Aydındır ki, Tramp hadisəyə reaksiya verməyə bilməzdi. Ən azı ona görə ki, demokratlar administrasiyası onun yenidən prezident seçilməsini əngəlləmək üçün barəsində nə az, nə də çox - düz 34 ittiham üzrə iş qaldırıb. Bir il bundan əvvəl Trampın bu ittihamlar fonunda yenidən prezidentliyə namizəd olacağına, hətta bir daha seçiləcəyinə inananlar o qədər də çox deyildi. Bu baxımdan, barəsində məhkəmə işini dəf edərək yenidən Ağ Evə sahib çıxmış Trampın kiçik Baydenin əfvini səssiz qarşılayacağı ağlabatan görünmür.



Donald Tramp

Vəkillər Todd Blanş və Emil Bouv artıq bəyan ediblər ki, əgər belədirsə, onda Tramp barədə qaldırılmış iddialar da ləğv olunmalıdır. Çünki ortada Baydenin özünün baiskarı olduğu presedent var. Əgər ata Bayden kiçik Baydenin prezident oğlu olduğuna görə təqibə məruz qaldığını düşünürsə, Trampa qarşı qaldırılmış iddialar da onun siyasi görüşlərinə görədir: "Trampın siyasi baxışları Vaşinqtondakı korrupsiyalaşmış siyasətçilər üçün təhlükə olmasaydı, bu ittihamlar heç vaxt qaldırılmazdı".

## DEMOKRAT ADMİNİSTRASİYANIN ANTİ-DEMOKRATİKLİYİ

Baydenin oğluna münasibətdə qanunsuz üzgörənliyi ABŞ-nin demokratlar hakimiyyəti illərində qəbul edilmiş bir çox kritik qərarların legitimliyini sual altına alır. Oğul Baydenə münasibətdə tətbiq edilmiş əfv onun məhz prezident oğlu olduğuna görədirsə, deməli, bu kimi addımlar az olmayıb. Əgər problemi şəxsi və daxili müstəvidən beynəlxalq platformaya transformasiya etsək, demokratlar administrasiyasının yürütdüyü siyasətin bir çox hallarda qərəzli və məqsədli olduğunu görərik. Uzağa getməyək, Gürcüstan hökumətinin sıxışdırılması ona görə edilir ki, Tbilisi Qərbin tələblərinə boyun əymir. Bakıda uğurla başa çatan COP29-a qarşı gözdənsalma kampaniyası ona görə aparılırdı ki, demokratların gözləntiləri cavabsız qalmışdı, erməni dostlarının bəzi xülyaları Azərbaycan tərəfindən qətiyyətlə rədd edilirdi. Bir az da tarixə varsaq, yenicə prezident seçilmiş Bayden dövlətinin maraqlarına zidd gedərək "erməni soyqırımı"nı ona görə tanıdı ki, türk və islam dünyasına patoloji nifrəti var.

Son günlərini yaşayan Bayden administrasiyası ABŞ tarixinə ən uğursuz iqtidarlardan biri kimi daxil olacaq. İlk gündən seçki saxtalaşdırmaları hesabına hakimiyyət olimpinə qalxmış Baydenin dörd ildən sonra biabırçı şəkildə seçki prosesindən çəkilməsi, yerinə irəli sürülən namizədin isə bir vaxtlar səslərini oğurladıqları Trampa məğlub olması, onun hakimiyyətinin silinməz ləkəsidir. Onun bu rəzalət yolunun son anlarında cinayət törətmiş oğlunu əfv etməsini amerikalılar illər sonra yəgin ki, "Hantergeyt" adı ilə xatırlayacaqlar...

# SURİYADA QÜVVƏLƏR BALANSI DƏYİŞİR



Suriyada vəziyyət yenidən gərginləşib. Müxalif hərbi qruplaşmalar sürətlə yeni əraziləri ələ keçirirlər. Baş verənlər Türkiyənin regiondakı mövqelərini bir az da gücləndirir.



AZƏR NURİYEV

Son günlər Suriyada baş verənlər vəziyyəti yenidən kritikləşdirib. Dörd illik fasilədən sonra gərginlik yenidən pik həddə çatıb. Bəşər Əsəd rejiminə müxalif qüvvələr Hələb də daxil mühüm şəhərləri ələ keçiriblər. Bu, son illərdə Suriya hökumətinə qarşı ən böyük hücum sayılır. 2011-ci ildə başlayan və on il gah alovlanan, gah da səngiyən vətəndaş müharibəsi zamanı Suriya Prezidenti Bəşər Əsəd atasından miras qalmış hakimiyyətini qoruya bilsə də, ölkə parçalanıb. Parçalanmış vəziyyətdə olan ölkə faktiki müxtəlif güc mərkəzlərinin nəzarəti altına düşüb.

Hakimiyyətə qarşı silahlı mübarizəni bərpa edən müxalifət, daha dəqiq desək, "Suriya Milli Ordusu" Əsəd silahlılarına və PKK qruplaşmasının YPG qoluna qarşı döyüşlər aparır. "Azadlıq şəfəqi" əməliyyatı ilə müxalifət Tel-Rıfat rayonunun mərkəzini PKK/YPG terror dəstələrindən tamamilə təmizləyib.

Hazırda bölgədə Türkiyə ilə yanaşı, İranın dəstəklədiyi qrupların qarşı-qarşıya gəldiyi bir vəziyyət müşahidə edilir. Tehran Əsədin hakimiyyətini qorumağa çalışır. Bu isə Yaxın Şərqdə iki qonşu ölkənin birbaşa münaqişə riskini artırır. Çoxları bu qənaətdədir ki, İran və Rusiya bölgədə böyük rol oynayan iki müdaxiləçi qüvvədir. ABŞ isə bu müdaxiləyə son qoyulmasına çalışan qüvvə kimi xarakterizə edilir. Vaşinqton hesab edir ki, Rusiya və İran Suriyaya müdaxiləni dayandırsalar, bu, regionun sabitləşməsinə kömək edəcək.

### İRAN BÖLGƏDƏ VƏZİYYƏTİ GƏRGİNLƏŞDİRƏ BİLƏR

İddia olunur ki, İran İraqdakı özünə bağlı qüvvələri Suriyaya göndərə bilər. Bu isə vəziyyəti daha da gərginləşdirəcək. Suriyadakı İran, Rusiya və "Hizbullah" qüvvələri son hücumlarla bağlı Əsədi müdafiə etməkdə acizdir. Hələbin bu qədər rahat şəkildə ələ keçirilməsi rejim, Rusiya, İran, "Hizbullah" qüvvələrinin və onun müttəfiqi olan digərlərinin nə qədər zəif olduğunu göstərdi. Halbuki Əsəd hökuməti Hələbi Rusiya aviasiyasının, İran və "Hizbullah" qüvvələrinin, o cümlədən digər şiə qruplaşmaların dəstəyi ilə dörd ilə almışdı. İndi isə bir neçə günə İdlib və Hələbi tamamilə, Hamanın isə yarısını itirib. Bəşər Əsəd bu hücumlar qarşısında özünü müdafiə edə bilmir. Nəticədə də o, müttəfiqlərinə müraciət edib. İraq və İran kömək göndərəcəklərini bildiriblər.

### MÜXALİFƏTİN SON HƏDƏFİ

Belə görünür, son hədəf Dəməşq olacaq. Əsədin devrilməsi müxalifətin başlıca hədəfidir. Əslində bu, 13 il öncə yarımçıq qalmış fəaliyyətin davamı da sayıla bilər. Çünki 2011-ci ildə başlayan "Ərəb baharı" Əsədin istefasına nail olmamışdı. Onda başlanan etirazlar nəticəsində siyasi məhbuslar, bütün vilayət rəhbərləri işdən azad edilmişdi. Bir sıra deputat və yüksək rütbəli şəxslər istefa vermişdi. Rusiya və İrandan dəstək alan Bəşər Əsədin silahlı dəstələri etiraz aksiyaları keçirilən şəhərlərə silahlı müdaxilə etmiş, onlara atəş açmışdı. Görünür, müxalifət yarımçıq qalmış işini sona çatdırmaq istəyir.



Bəşər Əsəd

## RƏSMİ ANKARA İTTİHAMLARI RƏDD EDİR

Müxalifətin uğurları rəsmi Dəməşqin, həmçinin onun müttəfiqləri olan Moskva və Tehranın Ankaraya qarşı hücumlarına səbəb olub. Mediada bir sıra şərhlərdə Suriyada gərginliyi artıran qüvvənin Ankara olduğu versiyası ortaya atılıb. Qeyd olunur ki, nizami ordu mövqelərinə hücum İdlib vilayətində Türkiyənin məsuliyyət zonasından başlayıb. Lakin Türkiyənin xarici işlər naziri Hakan Fidan ölkəsinin Hələbdəki münaqişədə iştirak etmədiyini və Suriyada terror strukturunun dövlətə çevrilməsinə heç vaxt icazə verməyəcəyini bildirib. "Bizim son məqsədimiz Suriyanın ərazi bütövlüyünü təmin etməkdir", - deyə nazir əmin edib. H.Fidan əmindir ki, Suriya terrorçuları tamamilə ABŞ-dən asılıdır: "Terrorçu qrupların oksigen maskası Amerikadadır. ABŞ oksigeni kəssə, onlar üç gün də yaşaya bilməzlər".

ABŞ administrasiyası isə hesab edir ki, Ankara Suriyada vəziyyətin nizamlanması üçün öz təsirindən istifadə etməlidir. Bu barədə Dövlət Departamentinin mətbuat xidmətinin rəhbəri Metyu Miller bildirib. "Biz heç bir ölkənin Suriyadakı qeyri-sabit vəziyyətdən istifadə etməyə çalışmasını istəmirik. Biz bütün ölkələrin öz təsirindən, təsir vasitələrindən de-eskalasiya, mülki əhalinin müdafiəsi və nəticədə siyasi prosesin irəliləməsi üçün istifadə etməsini istəyirik", - diplomat deyib. Miller əlavə edib ki, ABŞ-nin Suriya Prezidenti Bəşər Əsədə münasibəti dəyişməyib.

### ƏSƏD DANIŞIQLARA RAZIDIR

Türk siyasi analitiklərinin fikrincə, "Suriya Milli Ordusu"nun irəliləməsi Türkiyənin həm döyüş meydanında, həm də danışıqlar masasında mövqelərini gücləndirə bilər. Artıq bunun müəyyən əlamətləri görünür. Yenidən alovlanan müharibə və müxaliflərin ard-arda qələbələri yeni reallıqlar ortaya çıxarıb. Astana danışıqlarına qapı bağlayan İran və Rusiya indi Ankaradan prosesi yenidən başlatmağı xahiş edirlər. Yeni paradiqma Türkiyənin həm masada, həm də sahədə əlini gücləndirir. Ankara prosesin mərkəzindədir. Müxalifət qüvvələrinin Hələbi ələ keçirməsindən cəmi bir gün sonra müxtəlif mənbələrdən Əsədin Türkiyə ilə ilkin şərtlər olmadan danışıqlara başlamağa hazır olması xəbərləri yayılıb. Halbuki əvvəllər Suriya lideri Prezident Rəcəb Tayyib Ərdoğanın danışıq təkliflərini rədd edirdi.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17
E-mail: kaspiqazeti@kaspi.az

# AZƏRBAYCAN İPƏKÇİLİYİ TƏHLÜKƏDƏ

İpəkçilik sahəsində deqradasiya müşahidə edilir. Həm istehsal, həm də ixrac kəskin azalıb. Səbəb kimi urbanizasiya, mütəxəssis çatışmazlığı və dövlət dəstəyinin zəif olması göstərilir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Vaxtilə şöhrəti dillər əzbəri olan Azərbaycan ipəyi bu gün çətin durumdadır. Açıqlanan statistik rəqəmlər də bu qənaətə gəlməyə əsas verir. Təsadüfi deyil ki, başa çatmaqda olan ildə "Azəripək" də ixrac gəlirlərini üç dəfə azaldıb. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin təqdim etdiyi "İxrac icmalı"nın noyabr sayında qeyd edilib ki, bu ilin yanvar-oktyabr aylarında "Azərbaycan Sənaye Korporasiyası" ASC-yə (ASK) məxsus "Azəripək" MMC 588 min ABŞ dolları dəyərində məhsul ixrac edib.

Sənədə əsasən, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 1,1 milyon ABŞ dolları və ya 2,9 dəfə azdır. Maraqlıdır, ixracın kəskin azalmasının səbəbi nədir? İpəkçiliyin inkişafının qarşısında hansı problemlər dayanır?

**TOXUM VƏ QURD PROBLEMİ**

"Azəripək" MMC direktorunun müşaviri Teymur Musayev "Kaspi"yə açıqlamasında bildirdi ki, hazırda qarşılarında dayanan əsas məsələ toxum və qurd problemidir: "Hər il noyabrın əvvəlində gələn il üçün nə qədər toxum gələcəyi və neçə qutu qurd paylanılacağı məlum olurdu. Amma bu il heç bir məlumat yoxdur. Azərbaycanda qədim ənənələri olan baramaçılığın və ipəkçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi, ixrac potensialının artırılması, kənd yerlərində məşğulluğun təmin edilməsi və nəzərdə tutulan digər işlərin vahid proqram əsasında həyata keçirilməsi məqsədilə 2017-ci il noyabrın 27-də "Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı" təsdiqlənib. Dövlət Proqramında Azərbaycanda 2025-ci ilədək yaş barama istehsalı həcminin altı min tona çatdırılması nəzərdə tutulub. Lakin hazırda bu sahədə vəziyyət yaxşı deyil, hətta acınacaqlıdır".

**220 NƏFƏR İŞÇİ MƏCBURİ MƏZUNİYYƏTƏ GÖNDƏRİLİB**

Mütəxəssis deyir ki, 2015-ci ildə respublikada 236 kq barama istehsal olunduğu halda, Prezidentin göstərişindən sonra 2016-cı ildə 71,7 ton barama istehsal olundu. 2019-cu ildə 641 ton yaş barama istehsal olunub. 2024-cü ildə isə bu rəqəm 174 tondur. Rəqəmlər bu sahədə olan hazırkı durumu aydın şəkildə göstərir.

Mütəxəssisin sözlərinə görə, ötən il yaş baramanı tək "Azəripək" yox, özbək şirkətləri də aldılar və özləri də emal etdilər: "Bərdənin ətrafındakı barama istehsal edən rayonlardan yaş baramanı özbəklər aldı. Ən gözəl barama istehsal edən rayonlar - Ağcabədi, Goranboy, Ağdaş, Yevlax, Tərtər, Bərdə, Ağdam yaş baramanı özbəklərə satdı. Onlar da bunu xaricə ixrac edirlər. Halbuki qonşu ölkələrin heç birində baramanın xammal kimi xarici ölkəyə satışına dövlət səviyyəsində icazə verilmir. O barama ötən il bizə verilsə idi, işləyərdik. Hazırda müəssisədə 220 nəfər işçini məcburiyyət qarşısında məzuniyyətə göndərmişik. Çünki iş yoxdur".



## Qurdu saxlamaq ayrıca sənətdir

İsmayıllıdan olan ipəkçilik üzrə mütəxəssis Qoşqar Fətəliyev də bu sahədə vəziyyətin acınacaqlı olduğunu bildirdi. Onun səbəbləri isə fərqlidir. Mütəxəssis bu sahədə peşəkarların olmamasından şikayətlənir: "Biz həm toxuya bilirik, həm də kəlağayı istehsal edirik. Bunun üçün ipi Şəkidən alırıq. Əslində, İsmayıllıda kənd camaatı baramanı böyüdür, hazırlayır və kilo ilə Şəkiyə satır. Şəki onu bizdən alır və ip şəklində bizə verir. Hər baramada bir tel olur. 10 tel birləşir və kəlağayıda istifadə olunan 310 markalı ən məşhur sapı əmələ gətirir. Biz Şəkidən 310 markanı alırıq, burada emal edirik, ipək parçanı toxuyur, istehsal edirik. Lakin hazırda ən böyük problemlərdən biri tut ağaclarının yetərincə olmamasıdır. Ona erkək tut ağacı deyilir. Hansı ki, bar vermir, qurd onun yarpaqlarını yeyir və inkişaf edir. Son dövrlərdə qurdun növündə də problem var. Sovet hökuməti dövründə qurdlar 40 günlük idi, indi isə 28 günlükdür. Bu qurdların saxlanılması üçün mütəxəssis yoxdur. Mütəxəssis hazırlamaq üçün mütləq şəkildə təlimlər keçirilməli, maarifləndirmə aparılmalıdır. Qurdu saxlamaq ayrıca bir sənətdir. Bunu edə bilən kənd əhalisi isə yox dərəcəsindədir".

## Ən böyük səbəb kəndlinin şəhərə köçməsidir

Həmsöhbətimiz vurğulayır ki, problemin kökündə urbanizasiya da dayanır: "Mütəxəssis çatışmazlığının ən böyük səbəbi kəndlinin şəhərə köçməsidir. Qurd vaxtı kənddə işçi tapmaq olmur. Bu, 3-5 adamın işi deyil. O vaxt nənələrimiz bu işlə məşğul idi. Məsələn, nənəmin beş oğlu olub, hər uşaq bir yarpaq gətirəndə iş düzəlirdi. Burada təkcə maddi tərəf yox, mənəvi tərəf, zəhmət də rol oynayır. 40 gün o qurd böyüyənə qədər ailənin bütün fərdləri əziyyətini çəkiblər. Amma bu gün bunu hansı uşağa deyə bilərsən? İşlətməyə adam yoxdur. Maaşlı işçiyə müraciət etdikdə də, gəlir xərclərini ödəmir. Buna görə də ipəkçilik təhlükədədir. Bu sahəyə maraq artırılmalı, dövlət nəzarəti gücləndirilməli və maarifləndirmə tədbirləri aparılmalıdır".



**CİDDİ MƏBLƏĞDƏ VALYUTA GƏTİRƏ BİLƏR**

İqtisadçı-ekspert Pərviz Heydərov da deyir ki, Azərbaycanda ipəkçiliyin inkişafı istənilən səviyyədə deyil və problemlər mövcuddur: "Qeyri-neft sektoru üzrə ixrac potensialımızda ipəyin çox mühüm yeri var. Biz ipəyi ixrac etmək imkanındayıq. Amma real olaraq üç ölkəyə - İrana, Hindistana, Türkiyəyə göndərə bilirik. Bu sahədə Azərbaycanın qədimdən böyük təcrübəsi var. Son illər ərzində də bu sahəyə müvafiq vəsait qoyuluşu onu dirçəltmişdi. Lakin görünən budur ki, bərpa prosesi lazımi səviyyədə getmədi".

İqtisadçı bildirir ki, ixracın bir il ərzində bu səviyyədə azalması bilavasitə daxili səbəblərdən qaynaqlanır: "İpək dünya bazarında tələb olunan məhsul növlərindən biridir. Bu sahədəki kəskin azalma xarici bazarlarla izah edilə bilməz. Səbəb kənar amillər deyil, sırf daxili səbəblərdir. Fərdi təsərrüfatlarda bu işə maraq artırılsa, emal prosesi ilə xammalın əldə olunması arasında zəncirvari əlaqə təmin olunsa, ixrac stimullaşdırılsa, ipək ölkəyə ciddi məbləğdə valyuta gətirə bilər".



Pərviz Heydərov

# 1500 MƏKTƏBİ GÖZLƏYƏN REALLIQ

**Şagird sayı yüzdən az olan məktəblərin gələcək taleyinin necə olacağı ilə bağlı nigaranlıq artır. Nazir vəd edir ki, söhbət yalnız məktəbin fəaliyyətinin dayandırılmasından getmir. Buraya məktəblərin birləşdirilməsi, peşə təmayüllü siniflərin açılması da daxildir.**



TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

"Ölkədə 1500 məktəb bağlanacaq" xəbəri sosial şəbəkələrdə və mediada tirajlanaraq cəmiyyət tərəfindən birmənalı qarşılanmadı. Valideynlər "uşaqlarımızın taleyi necə olacaq?", müəllimlər "işsiz qalacağıq?" deyə narahatlıq keçirdilər. Elm və təhsil naziri Emin Əmrullayev özünün sosial şəbəkə hesabında mövzu ətrafında səsləndirilmiş fikirlərin düzgün anlaşılmamasını qeyd etdi: "Ölkədə fəaliyyət göstərən təxminən 4 400 məktəbin 1 500-də yüzdən az şagird təhsil alır. Şagird sayı aşağı olan məktəblərdə bir şagirdə xərclənən vəsait kifayət qədər böyükdür, tədrisin keyfiyyəti isə aşağıdır. Rasionallaşdırılma dedikdə yalnız məktəbin fəaliyyətinin dayandırılması nəzərdə tutulmur, buraya məktəblərin tipinin dəyişdirilməsi və ya birləşdirilməsi, peşə təmayüllü siniflərin açılması da daxildir".

Təbii ki, hər bir yeniliyin proses zamanı müəyyən çətinlikləri də meydana çıxır. "Rasionallaşmanın həyata keçiriləcəyi təqdirdə müəllim və şagirdlər hansı problemlə üzləşə bilərlər" sualı isə həmin məktəblərdə çalışan müəllimlərin taleyi, şagirdlərin bir kənddən digər kənd məktəbinə necə yollanması və sair ilə bağlı əlavə suallar doğurur.

### SİNİFLƏRDƏ UŞAQ SAYI AZALIR

Xaçmaz rayonu, Çarxı kənd orta məktəbin alman dili müəllimi Tavat İsgəndərova bildirir ki, bu xəbəri eşidincə, iş yerlərini itirə biləcəklərinə görə narahatlıq keçiriblər: "Qonşu kəndlərdə məktəblər var ki, orada təhsil 9 illikdir. O məktəblərin 10-11-ci sinif uşaqları gəlib bizim kənddəki iki məktəbdə oxuyurlar. Əsasən də oğlan uşaqları gəlir. Qızlar çox vaxt 9-cu sinifdən sonra dərslərini davam etdirmirlər. Başqa kəndə oxumağa getmək onlar üçün problemə çevrilir. Amma avtobus ayrılsa, bu problem həll olunar. Digər problem ailələrin iş dalıyca Bakıya köçmələridir. Nəticədə siniflərdə uşaq sayı azalır. Həmçinin ailələrdə də uşaq sayının az olması problemi dərinləşdirir".

Cəlilabad rayon Nizami adına şəhər 1 saylı Məktəb-liseyin müəllimi Asya Yusifova etiraf edir ki, yaxın kəndlərdə elə məktəblər var ki, bir sinifdə 5-10 uşaq oxuyur: "Eşitdiyimə görə, rayonda bir neçə kənd birləşib bir məktəbdə dərs keçir. Bir kənddən o biri kəndə getmək, xüsusən ibtidai sinif uşaqları üçün çətinlik törədər". A.Yusifovanın fikrincə, valideynlərin bu məsələdə narahat olmağa haqları olsa da, müəllimlərin narahatlığı əsassızdır: "Müəllimlər MİQ imtahanı verib onlar üçün sərfəli olan məktəbə təyin olunacaqlar. Bununla belə, bir məktəb köçürülərsə, müəllimləri də köçürülür və heç kəs işsiz qalmır. Ancaq uşaqlar üçün çətinlik yarana bilər. Çünki bir kənddən digər kəndə getmək çətinliyi olur".

### Daha yüksək səviyyəli təhsil imkanları üçün

Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın (İŞ) katibi Günay Əkbərova hesab edir ki, məktəblərin fəaliyyətinin rasionallaşdırılması adambaşı maliyyələşmə sisteminə keçidin vacib tərkib hissəsidir: "Bu yanaşma azsaylı şagirdi olan məktəblərə ayrılan böyük vəsaitin daha effektiv və səmərəli şəkildə istifadə edilməsini, şagirdlərin daha yaxşı şəraitdə və yüksək standartlarda təhsil alma imkanlarının genişləndirilməsini hədəfləyir". İŞ katibi bildirir ki, son tədris ilində şagird sayı 10-dan az olan 142 məktəbin fəaliyyəti rasionallaşdırılıb: "Bu proses çərçivəsində bəzi məktəblər birləşdirilib, digərlərinin isə fəaliyyət istiqaməti dəyişdirilib və ya peşə təmayüllü siniflər açılıb. Bu dəyişikliklər daha yüksək səviyyəli təhsil imkanları təmin etmək məqsədi daşıyır". G.Əkbərova hesab edir ki, bu proses mənfi mənada qiymətləndirilməməlidir. Belə ki, illər ərzində insanların yaşayış yerlərinin dəyişməsi, xüsusilə şəhər və rayon mərkəzlərinə köçü nəticəsində bəzi kənd və qəsəbələrdə şagird sayı əhəmiyyətli dərəcədə azalıb. Bu səbəbdən, az şagirdi olan məktəblərin fəaliyyətinin dayandırılması və ya daha sıx əhalisi olan ərazilərdə yeni məktəblərin açılması zərurətə çevrilib: "Düşünürəm ki, rasionallaşdırma prosesində təkcə iqtisadi göstəricilər deyil, eyni zamanda uşaqların və müəllimlərin rifahı, icmanın ehtiyacları və təhsil imkanlarının bərabərliyi kimi meyarlar da nəzərə alınmalıdır. Həmin meyarlardan ən vacibi nəqliyyatın təmin edilməsidir. Şagirdlərin mərkəzləşdirilmiş məktəblərə rahat və təhlükəsiz şəkildə daşınması təmin edilməli, həmçinin texnologiyalardan istifadə edərək distant təhsil variantları genişləndirilməlidir. Bu, xüsusilə ucqar ərazilərdə yaşayan uşaqlar üçün vacibdir". G.Əkbərovanın fikrincə, digər vacib məqam həmin məktəblərdə işləyən müəllimlərə yeni iş yerləri təklif edilməsidir: "Bundan əlavə, yerli icmalar bu prosesə cəlb edilməli, onların ehtiyac və narahatlıqları dinlənilməlidir. Bu, dəyişikliklərin daha asan qəbul edilməsinə kömək edəcək".



### Yəqin ki, çıxış yolu tapılacaq...

Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının (AGMA) sədri Pərvinə Qədimova qeyd edir ki, ucqar dağ məktəblərində şagirdlər 5-6-cı siniflərdə oxuyarkən yaxın kəndlərdə olan ümumi və ya tam orta məktəblərə yönəlirlər: "Bu proses onsuz da avtomatik baş verir. İbtidai təhsilini öz məktəbində oxuyub, sonra başqa məktəblərə getməkdənsə, birbaşa digər məktəblərə getmək elə də böyük problem yaratmaz. Çətinlik yol və məsafə baxımından ola bilər, amma məktəblərin birləşdiriləcəyi təqdirdə aralarındakı məsafə və ora gedəcək şagird sayı nəzərə alınacaq. Hesab edirəm ki, nazirlik daha yaxın məsafədə olan məktəblərin birləşdirilməsi ilə bağlı qərar verəcək". Müəllimlərin narahatlığına gəlincə, P.Qədimova hesab edir ki, müəllimlər də digər məktəbə köçürülə bilərlər: "Bu, yerdəyişmə vasitəsi ilə ola bilər. Nazirlik müəllimlərin işsiz qalmasında maraqlı deyil. Bu baxımdan, yəqin ki, optimal bir çıxış yolu tapılacaq".



Tavat İsgəndərova

Günay Əkbərova

Pərvinə Qədimova

Foto: Rufat Mikayilov - Global Photostock



RUS, İNGİLİS, TÜRK, ALMAN VƏ ÇİN DİLLƏRİNDƏ SƏRBƏST DANIŞAN AZƏRBAYCANLI OĞLANIN UĞUR HEKAYƏSİ

# “PUMA”DAKI TƏK AZƏRBAYCANLI




Zərif Salmanlı
zarifsalmanli@kaspi.az

**Niyaməddin Bayramlı:** “Saytda “Puma”nın işçi tələbə axtardığını gördüm. Oraya son anda müraciət etmişdim. Müraciətimdən bir saat sonra artıq həmin vakansiya mövcud deyildi. Vakansiya silinən kimi zəng etdilər ki, “müsahibə prosesi üçün seçilmiş beş nəfərin biri də sənsən”.



Azərbaycan dilindən əlavə rus, ingilis, türk, alman və çin dillərində də sərbəst danışır. Hər yerdə ölkəmizi tanıdır, “mən azərbaycanlıyam” deyir. Hazırda “Puma”nın maliyyə departamentində maliyyə meneceri kimi fəaliyyət göstərən Niyaməddin Bayramlı Gədəbəyin Ərtəpə kəndində anadan olub. Uşaq ikən Rusiyanın Moskva şəhərinə köçüblər. Bağçaya və məktəbə orada gedib. Bakalavrı 2018-ci ildə Moskva Dövlət Regional Universitetinin iqtisadiyyat fakültəsində menecment ixtisası üzrə qırmızı diplomla bitirib. Çinin Şanxay şəhərində Şanxay Maliyyə və İqtisadiyyat Universitetində beynəlxalq biznes ixtisasında magistratura təhsilini 84 faizlik müsbət göstərici ilə yekunlaşdırıb. Almaniyada ikinci magistratura təhsilini məhz maliyyə sahəsi üzrə alıb. Magistraturada təhsil almaqla paralel “Puma” şirkətində maliyyə departamentində işçi tələbə kimi işləməyə başlayır. Magistraturanı bitirdikdən sonra elə “Puma” şirkətində ona iş təklif olunub. İki ildən artıqdır orada çalışır.

**“AZƏRBAYCANDA BÖYÜMƏSƏM DƏ, VƏTƏNİM AZƏRBAYCANDIR”**

● **Niyaməddin bəy, Rusiyaya köçdükdən sonra Azərbaycanla əlaqələriniz qalırdımı?**

● Uşaq olarkən hər yay tətilində doğulduğum kəndə baba evinə gedirdim. Həmin dövrlər mənim üçün çox əzizdir. 14 yaşıma kimi hər il onları ziyarət edirdik. Sadəcə təəssüflənirəm ki, ölkəmizin çox guşələrinə gedə bilməmişəm. Bir az Bakını görmüşəm, bir də Gəncə şəhərində olmuşam. Qalan bütün xatirələrim Ərtəpə kəndi ilə bağlıdır. Amma çox istərdim ki, işğaldan azad edilmiş ərazilərimizə də gedim. Gələcək illərdə qismət olarsa, bu arzumu reallaşdırmağı düşünürəm.

● **Uzun illərdir Azərbaycana gəlmirsiniz, lakin dilimizdə əla səviyyədə danışa və yaza bilirsiniz. Bunu kimə və nəyə borclusunuz?**

● Atam və anam sayəsində ana dilimizdə bu qədər səlis danışa bilirəm. Onlar çox vətənpərvərdir və bizi də elə böyüdüblər. Hətta atam bizə evdə rus dilində danışmağa qadağa qoymuşdu. Azərbaycanda böyüməsəm də, mənim vətənim Azərbaycandır. Hara getsəm, bunu mütləq vurğulayıram.

**“BABAM ÜÇÜN UNİVERSİTETİ ƏLAÇI BİTİRDİM”**

● **Həm bakalavr, həm də magistratura səviyyələrini yüksək nəticələrlə bitirmisiniz...**

● Bakalavr dövründə qiymətlərim yaxşı idi. Amma bəzi fənlərdən qiymətlərim dörd olmuşdu. Mən də dekanımıza məktub yazdım və yenidən üç fəndən imtahan vermək istədiyimi bildirdim. Bunu etməyimin də xüsusi bir səbəbi var idi. Babam həmişə gileylənirdi ki, nəslimizdə universiteti qırmızı diplomla bitirən yoxdur. Mən də babama söz vermişdim ki, “arzunu həyata keçirmək üçün çalışacağam”. İmtahanları yenidən verdim və qırmızı diplom aldım. Magistratura pilləsində Çində oxuduqda fərqli ölkədən olan tələbələrə baxıb onlarla sağlam rəqabətə girirdim. Dərslər də maraqlı olduğundan əlavə həvəs var idi. Həm də bilirdim ki, orada millətimi təmsil edirəm. İstəmirdim kimsə desin ki, “azərbaycanlı oğlan pis oxuyur”. Həm də təqaüd almaq üçün ikiqat səylə çalışırdım. Şanxayda oxuduğum sahə bir az fərqli idi. Çünki biznesi kitabdan öyrənmək çətindir. O səbəbdən orada oxuyarkən hər fəndən müxtəlif məlumatlar öyrənməyə çalışırdım. Qrup işləri görürdük, insanlar arasında sorğular keçirirdik. Əlaqələrimizi inkişaf etdirirdik. Bizə orada maliyyə dərsi keçirdilər, çox xoşuma gəlirdi. Şanxayda müəllimlərlə daha çox əlaqələr yarada bilirdik. Amma Almaniyada hər şey daha formal idi.

> “Çində təhsil alanda bilirdim ki, orada millətimi təmsil edirəm. İstəmirdim kimsə desin ki, “azərbaycanlı oğlan pis oxuyur”. Həm də təqaüd almaq üçün ikiqat səylə çalışırdım.”

**“ÖZÜMÜ QƏRİBƏ HİSS EDİRDİM”**

● **Nə üçün təhsiliniz bitən kimi Çini tərk etdiniz?**

● Özümü oraya aid hiss etmirdim. Şanxayda yaşayarkən anladım ki, uzun müddət orada yaşamaq istəməyəcəyəm. İş təklifləri alsam da, imtina etdim. Küçədə, ictimai nəqliyyatda bəzən insanlar mənə maraqla baxırdılar, çünki fərqli görünürdüm. Bir dəfə nisbətən kiçik olan Nançanq şəhərində idim, orada insanlar hətta mənimlə şəkil çəkdirirdilər. Özümü məşhur şəxs kimi hiss edirdim. Belə olduğu üçün də bu, fərqli hiss etdirirdi. Digər bir nüans isə onların yeməkləri ilə bağlı idi. Yeməkləri bizim öyrəşdiyimiz qidalardan fərqləndiyi üçün hər yerdə yeyə bilmirdim. Hər dəfə də yemək üçün mərkəzə, Avropa restoranlarına getmək əlverişli deyildi. O səbəbdən növbəti məkan olaraq Avropanı düşündüm.

**“SIXICI OLSA DA, ONDAN YAXŞISI YOXDUR”**

● **Bəs niyə bu qədər Avropa dövləti içində məhz Almaniya kimi hərtərəfli soyuq ölkəni seçdiniz?**

● Almaniyada yaşamağı təhsil baxımından seçmişəm. Çünki orada bir çox universitet var və təhsil haqqı ödəmirsən. Həmçinin verilən təhsil yüksəkdir və bütün ölkələrdə qəbul edilir. Universitetdə öyrəndiklərim işlədiyim sahədə mənə çox kömək olur. Amma yaşamaq üçün sıxıcı ölkədir. Almanların əksəriyyəti sanki robotdur. Onlarla səmimi, həyatdan söhbətlər edə bilməzsən, özünü narahat hiss edirsən. Düzdür, dünyagörüşü inkişaf etmiş, səmimi söhbət edə biləcəyin insanlar da var. Amma əksəriyyət soyuqdur. İnsanları kimi havası da soyuqdur. Qışda hava tez qaralır. Bəzən 2-3 həftə günəş olmur. Hava ilə insanlar arasında bağlılıq hiss olunur. Yay aylarında Almaniya sanki tamam fərqlidir. İnsanlar daha aktiv və pozitivdir. Bəlkə buna görədir ki, digər günəşli ölkələrə səyahət etdikdə orada insanlar daha pozitivdirlər. Burada bu qədər yaşamağıma baxmayaraq cəmi iki alman dostum var. Digər millətlərlə daha yaxşı dostluq etmək olur. Xüsusən də italyanlarla. Sanki dünyagörüşümüz, zarafatlarımız daha uyğundur. Amma Almaniyada yaşam standartları çox yüksəkdir. Aldığın əməkhaqqı ilə daha yaxşı yaşayırsan. Avropanın tam mərkəzində yerləşir. Digər ölkələrə bir neçə saat məsafədəsən. Səyahət etmək də bahalı deyil. Üstəlik, Almaniya sakit ölkədir. Qayda-qanunlara da əməl olunması çox xoşuma gəlir. Hər şeyi hesabladıqda Almaniyadan köçmək istəmərəm. İspaniya çox xoşuma gəlir, orada yaşamaq istərdim. İnsanları səmimidir, məni də onlara bənzədirlər. İtalyanların zarafatları, həyat tərzi də mənə çox yaxındır. Hətta oraya getdikdə özümü onlardan biri kimi hiss edirəm. Amma heyif ki, həmin ölkələrdə yaşamaq asan deyil. Almaniya bu baxımdan mənə daha əlverişli gəlir. Yaxın beş ildə özümü başqa yerdə təsəvvür edə bilmirəm. Buranın vətəndaşı olduqdan sonra başqa ölkəyə getməyi düşünə bilərəm.

**“ADİDAS”A DA MÜRACİƏT ETMİŞDİM”**

● **Almaniyaya gələrkən təsəvvür edərdiniz ki, dünyanın ən böyük idman geyim firmasında çalışmağa başlayacaqsınız?**

● Almaniyaya magistratura oxumaq üçün gəldim. O zamandan işlə bağlı da müraciət etdim. Almaniyada iş tapmaq bir az çətin idi. Çünki mənim oxuduğum proqram ingilis dilində idi. Almaniyada işə qəbul olmaq üçün onların da dillərini bilməlisən. Qaldığım ərazidə üç böyük firma vardı: “Semens”, “Puma” və “Adidas”. Onlarda ingilis dili biliyi ilə iş tapmaq daha rahatdır. “Adidas”a da müraciət etmişdim. Lakin bilirdim ki, məni işə qəbul etməyəcəklər. Çünki vakansiya daha çox texnologiya sahəsi ilə bağlı idi. Sonra bir saytda “Puma”nın maliyyə sahəsinə işçi tələbə axtardığını gördüm. Oraya son anda müraciət etmişdim. Müraciətimdən bir saat sonra artıq həmin vakansiya mövcud deyildi. Vakansiya silinən kimi zəng etdilər ki, “müsahibə prosesi üçün seçilmiş beş nəfərin biri də sənsən”. Müsahibə çox səmimi alındı. Bir həftə sonra işə qəbul olunmağımla bağlı rəsmi məktub əldə etdim.

**“HƏR İL ƏN AZI İKİ MİLYON İNSAN MÜRACİƏT EDİR”**

● **“Puma” kimi markada işə qəbul olmaq üçün, sizcə, nələr önəmlidir?**

● “Puma” böyük və beynəlxalq şirkət olduğu üçün oraya müraciət edən insanların sayı hədsiz çoxdur. İki ay əvvəl insan resursları departamentindən deyilmişdi ki, hər il onlara iş üçün ən azı iki milyon insan müraciət edir. Rəqabət çox böyükdür. Bəzən namizədlər o qədər çox olur ki, bütün müraciət edənlərin sənədlərinə baxa bilmirlər. O baxımdan düşünürəm ki, çox şanslıyam. Çünki son anda müraciət etdim və qəbul edildim. Amma müsahibədə uğurlu olmaq üçün özünü rahat aparmaq çox vacibdir. Çox həyəcan ziyandır. Çünki rahat olduqda onlar da görür ki, sən stresslə başa çıxa bilirsən. Böyük şirkətlərdə bu, üstünlük olaraq qəbul edilir.

**“HƏR KƏS RAHATLIQLA RƏHBƏRƏ MƏKTUB ÜNVANLAYA BİLƏR”**

● **Orada iş mühiti necədir?**

● “Puma”da işləmək çox maraqlıdır. Çünki burada iş və şəxsi həyat arasındakı balansa çox önəm verilir. Məsələn, cümə günü saat dörddə artıq heç kəs çalışmır. Amma əslində iş saatı beşdə bitir. Çalışmırlar, çünki şəxsi həyatları onlar üçün önəmlidir. Fikrimcə, bu balans qorunduğu üçün hər kəs bir-biri ilə mülayimdir. Həmçinin hər üç ayda bir dəfə insan resursları departamentinin nümayəndələri ilə görüş keçirilir. Qiymətləndirmə aparılır. İşçi də rahatlıqla onu narahat edən nüansları dilə gətirə bilir. İstəyən hər kəs rahatlıqla şirkətin rəhbərinə də məktub ünvanlaya bilər. Çünki hər kəsin fikrini bildirməsinə diqqət edirlər. Əgər yeni bir vakansiya olursa, öncə şirkətin daxilindəki işçilər üçün açılır. İstəyən işçi oraya müraciət edə bilir. Ondan sonra artıq ictimaiyyətə açıq halda paylaşılır. “Puma”da yüksəlmək elə də çətin deyil. Əgər sənə verilən tapşırıqları layiqincə yerinə yetirə bilirsənsə, bu, çox kömək olur. Rəhbərin sənin haqqında müsbət fikirdədirsə, bu, yüksəlməyinə müsbət təsir edir. Burada yüksəlmək üçün milli kimlik kimi nüanslar nəzərə alınmır. Yəni, alman olmasan da, heç bir ayrı-seçkilik yoxdur.

**“BİZİM ŞİRKƏTDƏ AZƏRBAYCANLI YOXDUR”**

● **Deyirsiniz ki, azərbaycanlı olmaq vəzifədə yüksəlməyə əngəl deyil. Orada ölkəmizi tanıyırlarmı?**

● Şirkətdə məndən başqa çalışan azərbaycanlı yoxdur. Həftədə bir dəfə püşk atılır və digər departamentin nümayəndəsi ilə kofe içməyə gedirsən. Bir dəfə insan resursları departamentinin müdiri ilə getdik. O, məndən haralı olduğumu soruşdu. Azərbaycanlı olduğumu dedikdə təəccübləndi. Dedi ki, bizim şirkətdə azərbaycanlı yoxdur. Mən də həmişə maraqlanırdım ki, bəlkə həmvətənlərimi taparam. “Puma”da Azərbaycanı daha çox “Formula 1” sayəsində tanıyırlar. Çünki şirkət “Formula 1”in sponsorudur. Azərbaycan dedikdə ağıllarına ancaq Bakı gəlir.



## “HƏR LAYİHƏNİN UĞURLU OLMASI MÜMKÜNSÜZDÜR”

● **Şirkətin uğurlarından danışdıq. Bəs uğursuz olduqları zamanlarda necə olurlar?**

● Mağaza açanda bir neçə məqamlara diqqət edirik. Yeri, oradan nə qədər insan keçdiyi və sair. Bunların hər biri nəzərə alınır. Bir neçə departament birlikdə çalışaraq nəticə əldə edirik. Amma mağazanı açdığımız ölkə də çox vacibdir. Çünki maliyyədə pul yatırdığın zaman ildən-ilə dəyərini itirir. Pul itkisini hesablamaq üçün inflyasiyanı da gözə almalıyıq. Məsələn, Türkiyə və Argentina təhlükəli ölkələrdir, çünki onlarda inflyasiya faizi yüksəkdir. Yaxud, Rusiyada yüzə yaxın mağazamız var idi, müharibə səbəbindən bağlamalı olduq. Bu, çox böyük ziyanla başa gəldi. Mağaza açdıqda uğursuz olması da normaldır. Hər layihənin uğurlu olması mümkünsüzdür. Yüz mağazadan 2-3-ndə bu, ola bilər. Bəzən mağaza özünü doğrultmur, analizlərimiz gözlədiyimiz kimi olmur. Amma bu zaman da heç kim işçini günahlandırmır. Hər kəs nəticəni ümumi qəbul edir.



● **İş həyatınız boyunca, öyrəndiyiniz ən vacib dərs nə olub?**

● Ən vacib dərs stresslə rahat başa çıxa bilməkdir. Çünki stressə girdiyimiz zaman aqressiv ola bilirik. Bu zaman iş yoldaşlarınla da münasibətlərin korlana bilər. İşə ilk başladıqda bir az bununla bağlı çətinlik çəkirdim. Bir də sualın olduqda onu rahat şəkildə dilə gətirmək lazımdır. Özünə güvənərək fikrini dəqiq ifadə etməlisən.

**“ŞİRKƏTİ İDARƏ EDƏN ÖNƏMLİ ŞƏXSLƏRDƏN OLMAQ İSTƏYİRƏM”**

● **Niyaməddin bəy, gələcək hədəfləriniz nədir?**

● Gələcək üçün müəyyən planlarım var. Maliyyə sahəsində “Hedc fondları” deyə bir sahə mövcuddur. Həmin sahə üzrə çalışmaq istərdim. Çünki orada daha çox riskli layihələr olur. Həm də istərdim növbəti çalışacağım şirkət daha kiçik olsun. Şirkəti böyüdən, qərarverici insanlardan biri də mən olum.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi



# UTİLİZASİYANIN BİR AYI



Foto: Tapdıq Abdullayev - Global Photostock

## İndiyə qədər 40-a yaxın avtomobil utilizasiyaya təqdim edilib. Gələcəkdə regionlarda da utilizasiya ilə bağlı toplama məntəqələri qurula bilər.

Artıq bir aydan çoxdur ki, Azərbaycanda köhnə avtomobillərin utilizasiyası həyata keçirilməkdədir. Bu addım ölkədə havanın ekoloji cəhətdən çirklənməsində əsas pay sahibi olan köhnə avtomobillərin sıradan çıxarılması və avtomobil parkının yenilənməsi təşəbbüsü çərçivəsində gerçəkləşdirilir. Maraqlıdır, köhnə avtomobil sahibləri utilizasiyaya nə dərəcədə maraq göstərirlər? Bu zamana kimi neçə avtomobil utilizasiyaya verilib?

**"11 AVTOMOBİL UTİLİZASİYAYA QƏBUL EDİLİB"**

"Təmiz Şəhər"ASC-nin şöbə müdiri Mirzə Laçınov "Report"a açıqlamasında bildirib ki, Azərbaycanda nəqliyyat vasitələrinin utilizasiyasına başlanılan bu ilin noyabr ayından artıq 11 avtomobil utilizasiyaya qəbul edilib. Buna görə 11 550 manat ödəniş edilib. Onun sözlərinə görə, ümumilikdə indiyə qədər 40-a yaxın avtomobil utilizasiyaya təqdim edilib.

"Gələcəkdə ölkənin regionlarında utilizasiya ilə bağlı toplama məntəqələri qurula bilər. Bu, müraciətlər əsasında reallaşa bilər. Utilizatorlar müstəqil sahibkarlardır", - deyə "Təmiz Şəhər" rəsmisi əlavə edib.

**VƏZİYYƏTDƏN SƏMƏRƏLİ ÇIXIŞ YOLU**

M.Laçınovun sözlərinə görə, Bakıda atmosferə atılan zəhərli qazların 75 %-i məhz nəqliyyat vasitələrinin payına düşür. Mirzə Laçınov bildirib ki, yararsız və istismar müddəti bitmiş avtomobillərin tullantıya çevrilərək ətraf mühiti çirkləndirməsi hazırda bütün dünyada ciddi problem sayılır: "Əksər ölkələr bu cür nəqliyyat vasitələrinin zərərsizləşdirilməsi istiqamətində müxtəlif proqramlar tətbiq edir. Vəziyyətdən səmərəli çıxış yollarından biri də həmin avtomobillərin utilizasiyasıdır".



**CİDDİ NƏZARƏTDƏ SAXLANILMALIDIR**

M.Laçınovun sözlərinə görə, utilizasiya proqramlarının dövlət səviyyəsində həyata keçirilməsi ətraf mühitin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir: "Bunu zəruri edən əsas səbəb köhnəlmiş və yararsız nəqliyyat vasitələrinin havanın, o cümlədən torpağın və su mənbələrinin çirklənməsində payının artması, onların zəruri ekoloji tələblərə əməl edilmədən pərakəndə utilizasiyası zamanı ətraf mühitə dəyən ziyandır. Tədqiqatlar göstərir ki, ölkəmizdə nəqliyyat vasitələrindən atmosferə atılan təkcə karbon oksidlərinin miqdarı il ərzində 700 min tona yaxındır. Bu isə nəqliyyat vasitələrinin ekoloji normalara cavab verməsinin ciddi nəzarətdə saxlanmasını tələb edir".

## MÜASİR DÖVRÜN TƏLƏBİ

"Təmiz Şəhər"in şöbə müdiri deyib ki, köhnəlmiş nəqliyyat vasitələri hərəkətin təhlükəsizliyi baxımından da risklər yaradır: "Texniki təhlükəsizlik tələblərinə cavab verməyən nəqliyyat vasitələri yol-nəqliyyat hadisələrinin, o cümlədən bədbəxt hadisələrin sayının artmasına səbəb olur. Qeyd olunanları nəzərə alaraq, onların utilizasiyasının dövlət səviyyəsində idarə edilməsi artıq müasir dövrün tələbidir".



Mirzə Laçınov

# İNSAN KİMİ DÜŞÜNƏN QURĞULAR YARADILA BİLƏR

Yaxın 6 ay ərzində dünyada insan kimi düşünən və qərar verən qurğular yaradıla bilər. "Report" xəbər verir ki, bunu Türkiyənin İstanbul Universitetinin dosenti Şəbnəm Özdəmir Bakıda keçirilən "Media texnologiyaları: yeniliklər və trendlər" adlı təlimdə bildirib.

"Son iki həftə ərzində baş verən texnoloji inkişaf nəticəsində insan səviyyəli süni intellektin yaradılması üçün kuantum kompüterlərə ehtiyacımız yoxdur. Əgər ABŞ Prezidenti Donald Tramp milyarder İlon Maskla fərqli ssenariyə imza atmasa, 6 ayda insanlıq özü kimi düşünən və qərar verən qurğularla tanış olacaq", - deyə o qeyd edib.



Şəbnəm Özdəmir

Alim deyib ki, araşdırmalara görə, ötən il bəşəriyyət gündə azı 7 dəqiqəsini "ChatGPT" və bənzər tətbiqlərlə keçirib: "Bu ilin statistikasına görə, süni intellektli tətbiqlərlə (makina) sosiallaşma müddəti 30 dəqiqəni ötüb".



## SOCAR və "Yokogawa Electric" memorandum imzalayıb

Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) və "Yokogawa Electric" şirkəti arasında əməkdaşlığa dair Anlaşma Memorandumu imzalanıb. "Report" bu barədə SOCAR-a istinadən xəbər verir. Məlumata görə, sənədə şirkətin prezidenti Rövşən Nəcəfin "Yokogawa Europe B.V."nin prezidenti, eləcə də "Yokogawa Electric Corporation"ın vitse-prezidenti Seita Hagihara ilə keçirdiyi görüşdə imza atılıb.

Memorandum şirkətlərarası əməkdaşlığın genişləndirilməsini nəzərdə tutur. Sənədə əsasən, tərəflər istehsalın optimallaşdırılması, enerji səmərəliliyinin artırılması, dekarbonizasiya fəaliyyəti, emissiyaların azaldılması, habelə rəqəmsallaşdırma və digər istiqamətlərdə əməkdaşlıq edəcək, birgə layihələrin icrası imkanlarını araşdıracaqlar.

ÜÇ ƏSRİN QƏZETİ Kaspi

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Rüstəm Qaraxanlı, Xanım Aydın, Aqşin Kərimov, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 2842
Tiraj: 2350
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

ELEKTRİK MÜHƏRRİKLİ AVTOBUSLAR QIŞ AYLARINDA PROBLEMLƏR YARADA BİLƏR

# ELEKTRİKLİ KEÇİDİN RİSKLƏRİ




Bakının avtobus parkı yenilənərək daha çox elektriklə işləyən avtobuslar gətirilir. Bu proseslə bağlı konkret müddət də qoyulub. 2030-cu ilədək paytaxtda bütün ictimai nəqliyyat vasitələrinin elektrik mühərrikli analoqları ilə əvəzlənməsi nəzərdə tutulub.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2030-cu ilədək paytaxtda bütün ictimai nəqliyyat vasitələrinin elektrik mühərrikli analoqları ilə əvəzlənməsi nəzərdə tutulub. Bunu Rəqəmsal İnkişaf və Nəqliyyat naziri Rəşad Nəbiyev deyib. Nazir əlavə edib ki, Azərbaycan yaxın zamanlarda dayanıqlı ekosistemin yaradılması barədə öhdəlik götürüb. Artıq ölkəyə 160 ədəd elektrikli avtobus gətirilib. Bunların sayı daha da artırılacaq.

Bakının 2030-cu ilə kimi tamamilə elektrikli avtobuslara keçidi təqdirəlayiq addımdır. Bəs bu nə dərəcədə real görünür?

### BU AVTOBUSLAR ÖLKƏMİZDƏ İSTEHSAL OLUNACAQ

Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən sorğumuza cavab olaraq bildirildi ki, ölkəmizdə dayanıqlı şəhər nəqliyyat sistemlərinin təmin edilməsi üçün görüləcək işlərdən biri də elektrik mühərrikli avtobusların tətbiq edilməsi və əhatə dairəsinin genişləndirilməsidir: "İstər ictimai nəqliyyata çıxış üçün təhlükəsiz piyada və velosiped marşrutlarının təmin edilməsi, istərsə də elektrik mühərrikli avtobuslar üçün enerji doldurma infrastrukturunun və xüsusi zolaqların yaradılması vasitəsilə dayanıqlı, aşağı karbonlu infrastrukturun tətbiqi prioritetdir. Azərbaycana gətirilən elektrik mühərrikli avtobusların artıq ictimai nəqliyyatda istifadəsinə başlanılıb. Elektrik mühərrikli avtobuslar 1, 5, 14, 21 və 88A nömrəli müntəzəm marşrut avtobuslarının istifadəsinə verilib. Qeyd edək ki, 2025-ci ildə Azərbaycanda Çinin "BYD" şirkətinin elektrik avtobuslarının istehsalı zavodu fəaliyyətə başlayacaq".

### ƏKSƏRİYYƏTİ SIRADAN ÇIXACAQ

Yol-nəqliyyat infrastrukturu üzrə ekspert Yasin Mustafayevin fikrincə, 2030-cu ilə qədər elektrikli avtobuslara keçid məsələsi realdır: "Çünki avtobuslar bir müddət işlədikdən sonra istismar müddəti başa çatır. İstifadə müddətləri olduqca azdır. 2030-cu ilə qədər hazırda mövcud olan avtobusların əksəriyyəti sıradan çıxmış olacaq. Onların yerinə də hər dəfə elektrikli avtobuslar gətiriləcək. İstismar müddəti bitməmiş olan avtobuslar isə bölgələrə veriləcək".

Ekspert elektrikli avtobusların infrastruktur məsələsinə də toxundu: "Elektrikli avtobuslar üçün əsas yükləmə məntəqələri lazımdır. Bu da onların dayandığı qarajlarda olmalıdır. Gələcəkdə müəyyən yerlərdə də quraşdırılacağını düşünürəm".

## Bu avtobuslardan tamamilə imtina etməməliyik



Adil Nəbiyev

Foto: Sabir Mammadov - Global Photostock

Nəqliyyat üzrə ekspert Adil Nəbiyev isə düşünür ki, gələcəkdə baş verə biləcək problemlərin qarşısını az da olsa almaq üçün dizel və qazla işləyən avtobuslardan tamamilə imtina etməməliyik: "Bütün dünyada elektrikli avtobuslara və avtomobillərə keçid həyata keçirilir. Bu keçid bizim ölkəmizə də aiddir. Hazırkı vəziyyət üçün bu, çox yaxşı haldır. Lakin gələcəkdə baş verə biləcək problemləri də nəzərə almalıyıq. Məsələn, hər hansı bir qəza baş verərsə, bir neçə gün elektriksiz də qala bilərik. Elektrik kəsintisi baş verdikdə ictimai nəqliyyat da iflic olar. O səbəbdən, ictimai nəqliyyatda tamamilə elektrikli nəqliyyat vasitələrinə keçid etmək təhlükəlidir. Daxili yanma mühərrikli avtobuslara da müəyyən qədər yer vermək lazımdır. Minimum 30-40 faiz həcmdə ehtiyat nəqliyyatımız daxili yanma mühərrikli olmalıdır ki, hər hansı bir problem baş verərsə, çətinlik yaşamayaq".

A.Nəbiyevin fikrincə, elektrik mühərrikli avtobuslar normal hava şəraitinə dözümlü olsa da, qış aylarında belə olmayacaq: "Hava soyuduqda avtobuslarda qızdırıcılar fəaliyyət göstərməlidir. Elektrikli avtobusların gün ərzində 350 kilometr hərəkət etdiyini bildirirlər. Lakin bu, normal hava şəraitində belədir. Məsələn, qarlı və şaxtalı havalarda onların bu qədər yol qət etməsi mümkün deyil. Bu zaman onların elektriki daha tez bitəcək. Avtobuslar gecikəcək, intervallar daha da böyüyəcək".

## ELEKTRİKLİ AVTOBUSLARIN UTİLİZASİYASI ÇƏTİNDİR



Yasin Mustafayev

Ekspert zərərsiz hesab etdiyimiz elektrikli avtobusların əslində böyük risklərinin olduğunu da qeyd etdi: "Elektrikli avtomobillərin faydasından danışırıq. Lakin unutduğumuz bir məsələ onların akkumulyatorlarıdır. Hansı ki, iri mühərrikli maşınlarda, həmçinin avtobuslarda bu, çox böyük həcmdədir. Avtobuslar köhnəldiyi zaman onların akkumulyatorları tamamilə istifadəyə yararsız olacaq. Onun elektrikini neytrallaşdırmaq üçün torpağın çox dərin qatlarına basdırmaq lazımdır. Çünki elektrikli avtobusların utilizasiyası çətindir. Bu akkumulyatorlar çox böyük həcmdə radiasiya yayır. Avtobuslar yeni olduğu zaman bu radiasiya səviyyəsi müəyyən qədər az olur. Lakin köhnəldikcə, yaydığı təhlükə də xeyli çoxalır. Yəni, elektrikli avtobuslar tam ekoloji təmizdir demək yanlışdır. Nəzərə almalıyıq ki, ətrafımızda yetəri qədər radiasiya mövcuddur. Bu, xüsusilə də Bakıda digər ərazilərdən qat-qat çoxdur. Hazırda Bakının yollarında iki milyondan artıq nəqliyyat vasitəsi hərəkət edir. Onların yarısının elektrikli olduğunu düşünək. Bu zaman yayılan radiasiyanı təsəvvür etmək belə dəhşətlidir".

# ƏMƏYİN ƏN YAXŞI QİYMƏTLƏNDİRİLDİYİ SAHƏ

Azərbaycanda informasiya texnologiyaları sahəsində həm tələbat, həm də əməkhaqqı artmaqdadır. Lakin bu sahədə ciddi kadr problemi yaşanır. Peşəkarlar isə xarici ölkələrə üz tuturlar.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Hazırda istər ölkəmizdə, istərsə də dünyada informasiya texnologiyaları (İT) sahəsi əməyin ən yüksək qiymətləndirildiyi istiqamətdir. Burada daim yaxşı bacarıqları olan peşəkarlara tələbat var. Hətta hansı ölkədə yaşamasından asılı olmayaraq, onlayn şəkildə işləyib daha çox gəlir əldə etmək imkanına sahibdirlər.

Təsadüfi deyil ki, bu ilin yanvar-sentyabr aylarında Azərbaycanda informasiya və rabitə sektorunda orta aylıq əməkhaqqı 12%-ə yaxın artıb, 1 671,4 manat təşkil edib. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, dövlət sektorunda bu göstərici 1 473,5 manat, özəl sektorda isə 1 813 manat olub.

Ötən ilin eyni dövrü ilə müqayisədə İKT sektorunda orta aylıq nominal əməkhaqqı 11,8%, o cümlədən dövlət sektorunda 15,2%, özəl sektorunda isə 9,4% artıb. Azərbaycanda İKT sektorunda muzdla çalışan işçilərin sayı oktyabrın 1-nə 34,1 min nəfər olub ki, bu da bir il əvvəlki göstəricidən 4,3% çoxdur.

### MÜTƏXƏSSİSLƏRİN SAYI NƏZƏRƏÇARPACAQ DƏRƏCƏDƏ ARTIB



Fərid Kazımov

İKT İnformasiya Mərkəzinin direktoru Fərid Kazımov bildirdi ki, son illər ölkədə tətbiq olunan proqramlar nəticəsində İT mütəxəssislərinin sayı nəzərəçarpacaq dərəcədə artıb: "Bu proqramlar çərçivəsində bu peşəyə ilk addım atanlar yeni biliklərə yiyələnib öz fəaliyyətlərinə başlayırlar. Lakin bu, yalnız ilk addımdır. Məlum istiqamətdə fəaliyyətlər yeni mərhələyə keçməlidir. Bu sahə üç səviyyəyə bölünür: ilkin bacarıqları olanlar, orta səviyyəli mütəxəssislər və peşəkarlar. İlkin mərhələdən digər səviyyələrə keçiddə axsamalar var. Xaricə gedənlər də əsasən, orta səviyyəlilər və peşəkarlardır. Ölkə daxilində olan peşəkarların da əksəriyyəti fiziki şəxs kimi fəaliyyət göstərərək xarici şirkətlər üçün işləyirlər".






## BAZARA LAZIM OLAN MÜTƏXƏSSİS YETİŞDİRƏ BİLMİRLƏR

Mütəxəssis deyir ki, bu gün bazarda peşəkar mütəxəssislərin sayını artırmaq üçün təhsil sistemində dəyişiklik vacibdir: "Şirkətlərə daha çox peşəkar mütəxəssis lazımdır. Bunun üçün hər hansı dövlət proqramı olmalı, kiçik mütəxəssislərin peşəkarlaşması üzərində çalışılmalıdır. Ən əsas məsələ isə Azərbaycanın ali təhsil sistemində tədris proqramları dəyişdirilməlidir. Amma yeni proqramlar yazılsa belə, tədris edənlərin əksəriyyəti o təcrübədən heç vaxt istifadə etməyənlərdir. Onlar bazara lazım olan mütəxəssis yetişdirə bilmirlər".

### MƏZUNLARIMIZ TƏHSİLİNİ BİTİRİR, AMMA...

F.Kazımovun sözlərinə görə, Azərbaycanda hazırda mühəndis bacarıqları olan İT mütəxəssis yetişdirməkdə ciddi problemlər var. Yəni, proqram, kod yazmağı öyrətmək problem deyil, onları kursda 7-8 aya öyrətmək mümkündür. Amma mühəndis bacarıqları olan mütəxəssisi yalnız ali təhsil səviyyəsində yetişdirmək olur: "Bunun üçün proqramlar təkmilləşdirilməli, bazar daxilində bu dərsləri verə biləcək peşəkar mütəxəssislər stiumullaşdırılmalıdır. Ali təhsil müəssisələrimiz ildə yüzlərlə orta səviyyəli mühəndislər buraxsa, kadr problemimiz olmaz. Amma bizim məzunlarımız təhsilini bitirir, yenə də bu sahəni kurslara öyrənməyə gedirlər. Ali təhsilli mütəxəssisin kursa ehtiyacı olmamalıdır".

### KÖHNƏ BİLİKLƏRDƏN AZAD OLMALIYIQ

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası (AİKTSA) İdarə Heyətinin sədri Elvin Abbasov deyir ki, bu sahədə daha çox kadr yetişdirmək və xaricə axının qarşısını almaq üçün ölkəmizdə münbit mühit yaranmalı, qanunvericilik təkmilləşdirilməli və ümumi təhsilin keyfiyyəti artırılmalıdır.

Mütəxəssis deyir ki, İKT şirkətləri universitetlərlə əməkdaşlıq edərək təcrübə proqramları təşkil etməlidir: "Şirkətlərdə mentorluq proqramları mədəniyyəti olmalıdır. Təcrübəli mütəxəssislər yeni başlayanlara mentorluq etməlidirlər".



Elvin Abbasov

Foto: Sabir Məmmədov Global Photostock

## İKT SEKTORUNDA TƏCRÜBƏ REAL İŞ MÜHİTİNDƏ ƏLDƏ OLUNUR

AİKTSA sədri vurğulayır ki, xarici təcrübə önəmlidir: "Gedənlərin böyük qismi geri dönür və öyrəndiyi bilikləri ölkəmizə qazandırır. İKT bazarını rəqabətli əməkhaqqı və şərtlər formalaşdırmalıdır. Yerli şirkətlərdə rəqabətli əməkhaqqı, iş şəraiti, tələb və təklif tarazlanarsa, xaricə gedən mütəxəssislər bir müddət sonra geri qayıdıb təcrübələrini ölkəmizdə istifadə edəcəkdir. Mütəxəssislərə karyera inkişafı və yüksəlmə imkanlarının yaradılması üçün ekosistem qurulmalıdır".

İT mütəxəssisi Vahid Qasımov deyir ki, bu sahədə kadr hazırlığı hazırda ölkədə ən yaxşılardandır: "İnsanlar İT sahəsində iş imkanlarının yaxşı olduğunu nəzərə alaraq bu sahəyə yönəlib. İldən-ilə daha çox insan universitetdə İT ixtisaslarını seçirlər. Hətta bəziləri ixtisaslarını dəyişib İT sahəsinə gəlirlər. Bunu qarşılamaq üçün də hazırda çoxlu kurslar və akademiyalar açılıb. Azərbaycanın hazırda əsas ehtiyacı olan mütəxəssislər yüksək səviyyəli və bacarıqlı kadrlardır. Bunu isə nə peşə təhsili, nə ali təhsil müəssisəsi hazırlaya bilər. Təcrübə ancaq və ancaq real iş mühitində illər boyu çalışmaqla əldə olunur. Bizdə bu cür imkanlar çatmır. Buna görə də çoxlu sayda İT üzrə peşə təhsili almış kadrlar təcrübə və iş yerləri tapmaqda çətinlik çəkirlər. Peşəkar İT mütəxəssislərə ehtiyacı olan müəssisələr təcrübəli kadr tapmaqda çətinlik çəkirlər. Nisbətən yüksək maaş alan yüksək səviyyəli kadrlar da inkişaf və yüksəlmə problemlərini yaşayırlar. Çünki milli müəssisələr təcrübəli mütəxəssisə daha maraqlı layihə, daha yaxşı iş və yaşam səviyyəsi, daha yuxarı vəzifə təklif etməkdə çətinlik çəkirlər. Bu da, öz növbəsində, təcrübəli İT kadrlarının xaricə köçməsinə səbəb olur".



Vahid Qasımov

Foto: Rüfət Mikayılov Global Photostock

# MİOKARD İNFARKTINA APARAN SƏBƏBLƏR

## Şahanə Ələsgərli: "Qış aylarında xəstə sayımız daha çox olur. Yayda qan təzyiqi normaya düşməyə başlayır. Bunun bir çox səbəbi var: biz tərlə maye itiririk, çox miqdarda su içirik".



İnfarktların həftənin hansı günündə, saatında, ilin hansı fəslində və hansı şəraitdə daha çox baş verdiyi məlum olub. Alimlərin tədqiqatları ürək-damar xəstəlikləri ilə bağlı bir çox məqamlara aydınlıq gətirib. Ürək çatışmazlığı mütəxəssisi, invaziv kardioloq Şahanə Ələsgərli mövzu ilə bağlı "Kaspi"yə müsahibəsində ürəyimizlə ehtiyatlı olmağa çağırıb.

### "MAVİ BAZAR ERTƏSİ"

**● Drezden Ürək Mərkəzinin tədqiqatçılarının araşdırmasına görə, bazar ertəsi infarkt riski həftənin digər günlərinə nisbətən daha yüksəkdir (17 faiz). Əgər həqiqətdirsə, burada iş həftəsinin başlanğıcını müşayiət edən stres rol oynaya bilərmi?**

● Miokard infarktının Bazar ertəsi baş verdiyini 13, 15 və ya 17 faiz göstərən tədqiqatlar mövcuddur. Orqanizmdəki hormonların, qanın, təzyiqin səviyyəsindən, stresdən asılı olaraq miokard infarktının yaranma ehtimalı günün, ayın, həftənin müxtəlif günlərində dəyişkən olur. Məsələn, həftənin ilk günü hər kəs üçün stresli vəziyyətdir. Hər kəs bazar günü istirahət edəndən sonra birdən işə başlayır. Tam olaraq bunun səbəbi bilinməsə də, düşünürük ki, bu, sirkad ritmlərlə bağlıdır. Stres hormonlarının, adrenalinlə kortizolun qanda daha yüksək rəqəmlərə qalxması təbii ki, həftənin əvvəlinə doğru miokard infarktı ilə müraciət edən xəstələrin sayının da çox olmasına səbəb olur. Buna "mavi bazar ertəsi", yəni ölümlərin çox olduğu bazar ertəsi deyirlər.

### MƏZUNİYYƏT "TƏHLÜKƏSİ"

**● Araşdırmalar məzuniyyətin ilk və son günlərində infarkt riskinin yüksək olduğunu da üzə çıxarıb. Həmin ərəfədə dəyişən həyat tərzi orqanizm üçün təhlükəli ola bilərmi?**

● Həmin ərəfədə, əsasən, miokard infarkt riski digər günlərə nisbətən daha çox olur. Bunun da izahı odur ki, insanlar daha həyəcanlı olurlar, məzuniyyətə çıxmamışdan artıq məzuniyyət planları qururlar. Onlar həmin dövrdə daha aktivdirlər. Bu onlarda hormonal səviyyənin yerindən oynamasına, qan təzyiqinin yüksəlməsinə gətirib çıxarır. Bu simptomlar orqanizm üçün stresdir. Yenə də orqanizmdə sirkad ritmlərin yeri dəyişir, damarların spazmı, qanın laxtalanmasının artması kimi faktorlar miokard infarkt riskini artırır. Tədqiqatların nəticələri də göstərir ki, bu, məzuniyyətin ilk günü daha çox baş verir və məzuniyyətin sonuna doğru da nisbətən artır. Bu da çox ehtimal, "işə qayıdacam" stresi ilə bağlıdır.

### SƏHƏR SAATLARININ RİSKİ

**● Adətən infarktın daha çox səhər saatlarında baş verdiyi deyilir. Amma alimlərin tədqiqatları səhərlər infarkt riskinin daha az olduğunu ortaya çıxarıb...**

● O tendensiya doğru deyil. Gecə 04.00 ilə səhər 10.00 arasında ən çox rast gəlinir. Sadəcə, xəstələrin xəstəxanaya çatma müddəti uzanır. Xüsusən bizim kimi toplumlarda insanlar "bir şey olmaz", "o ağrı bundan deyil" kimi fikirlərlə ağrılarına fikir vermirlər. Yaxud, ambulans gecikir. Düzdür, son illərdə bu sistem bizdə yaxşılaşıb, amma hələ də görüləcək işlər var. Təcili yardımlar birbaşa xəstəxanalarla əlaqələr qurmalı, xəstəni birbaşa invaziv mərkəzə çatdırmalıdırlar. Axşam saatlarında gəlib çatmış xəstələrə "ən güclü ağrınız saat neçədə olub?" - deyə sual verəndə "səhər 6-8" cavabını verirlər. Xəstələrin əksəriyyətində günün istənilən saatında miokard infarktı baş verir. Səbəbi də bəllidir: sirkad ritmlər, hormonal aktivlik, səhər saatlarında adrenalinin səviyyəsinin yüksəlməsi... Yuxunun ləng və gecikmiş fazalarının bir-birini ardıcıl əvəzləməsi ən çox yuxunun sürətli fazasında müşahidə olunur. Həmin müddətdə orqanizm səhər saatlarında oyanmağa başlayır, hormonal sistem aktivləşir, qana çoxlu miqdarda hormonlar atılır. Əksər insanlar yuxudan və ya çox erkən yuxudan ayılandan sonra bu, baş verir. Sadəcə, axşama doğru xəstəxanaya gəlib çıxa bilirlər. Bu baxımdan, orqanizmdə hormonal dəyişikliklər səhər saatlarında daha çox müşahidə olunur. Təbii ki, istisnalar da var. Bütün xəstələr günün istənilən saatında infarkt keçirə bilirlər. Amma məhz o saatlar infarkt saatlarıdır. Biz o saatı sevmirik.

SÖHBƏTLƏŞDİ

Təranə Məhərrəmova
taranamaharramova@kaspi.az

> "Kəskin infarktın baş verməsində birbaşa stres in böyük rolu var. Tək emosional stres deyil, fiziki stres də rol oynayır. Ona görə də "istirahət edəcəyəm, işləməyəcəm", - deyə həftə sonunu hamı sevir."





Fotolar: Sabir Məmmədov - Global Photostock

### "İSTİRAHƏT EDƏCƏYƏM, İŞLƏMƏYƏCƏM..."

**● "İnfarktlar həftə sonları daha az baş verir", tədqiqatın bu nəticəsinə necə, təcrübədə rast gəlinirmi?**

● Bu da hər halda stres faktoru ilə əlaqəlidir. Çünki yeni həftə başlayanda stres, gərginlik olur. Həftə sonları insanlar daha relaks olmağa başlayırlar. Bu amillər təbii ki, rol oynayır. Çünki kəskin infarktın baş verməsində birbaşa stresin böyük rolu var. Tək emosional stres deyil, fiziki stres də rol oynayır. Ona görə də "istirahət edəcəyəm, işləməyəcəm", - deyə həftə sonunu hamı sevir.

İnsanın orqanizmini çox yorması - stres hormonlarını artıraraq miokard infarktının yaranma ehtimalını artırır. Biz fikirləşmədən, dayanmadan işləyirik. Bu, orqanizm üçün çox zərərlidir. Düzdür, indiki dövrdə stresdən bir az uzaq durmaq çətindir, amma maksimum buna çalışmalıyıq.

### QIŞ, YOXSA YAY?

**● "İnfarktlar daha çox qış aylarında olur", - belə bir açıqlama da var.**

● Bəli, qış aylarında miokard infarktına daha çox rast gəlinir. Bizim də xəstə sayımız yaz aylarında azalır. Bu, planlı xəstələr üçün anlaşılandır. Çünki insanlar istirahətə gedirlər, xəstəxanaya daha az müraciət edirlər. Yay aylarında kəskin xəstələrin də sayı azalır. Bunu da əlaqələndiririk: qışın soyuğunda bədənimizdə olan damarlar spazma uğrayır. Onda damarın daxili qatı yırtıla bilir. Bu, tromb yaradır və infarkta səbəb olur. Qış gələndə qan təzyiqi yüksəlir. Qışda iki həb istifadə edən təzyiq xəstələri yayda bir həb istifadə edir. Təzyiq infarkt üçün bir risk faktorudur. Tədqiqatlar da, bizim müşahidələrimiz də bunu göstərir: qış aylarında xəstə sayımız daha çox olur. Yayda qan təzyiqi normaya düşməyə başlayır. Bunun bir çox səbəbi var: biz tərlə maye itiririk, çox miqdarda su içirik. Qışda turşu-şorabalardan daha çox istifadə olunur, qidalanmanın da rolu böyükdür.

KÖRFƏZ ÖLKƏLƏRİNDƏN OLAN İŞ ADAMLARI ƏMLAK SEKTORUNA MARAQ GÖSTƏRİR

# XARİCİ İNVESTORLAR TİKİNTİ SEKTORUNDA

Hazırda daha çox Körfəz ölkələrindən olan iş adamları bu sahəyə sərmayə yatırmaqda maraqlı görünürlər. Bəs, görəsən, xarici sərmayəli tikinti şirkətlərinin Azərbaycana gəlməsi əmlak bazarına nə vəd edir?

SEVİNC ABBASOVA

Azərbaycanın tikinti sektoru xarici investorların diqqət mərkəzindədir. Hazırda daha çox Körfəz ölkələrindən olan iş adamları bu sahəyə sərmayə yatırmaqda maraqlı görünürlər. Ekspertlər bildirirlər ki, əslində pandemiyadan öncə də xarici investorların Azərbaycanın tikinti sektoruna marağı yüksək olub. Lakin COVID-19-la bağlı dünyada tətbiq olunan məhdudiyyətlər səbəbindən iş adamları biznes planlarını rəfə qaldırmalı olublar. Hazırda həmin biznes planların icrası üçün əlverişli şərait yarandığından xarici sərmayədarlar yenidən Azərbaycan bazarına maraqlarını ifadə edirlər.

Bəs, görəsən, xarici sərmayəli tikinti şirkətlərinin Azərbaycana gəlməsi əmlak bazarına nə vəd edir? Ümumiyyətlə, hazırda bu sahədə xarici investora məxsus şirkət fəaliyyət göstərirmi?

### HAZIR BİNALAR VƏ BİZNES MƏRKƏZLƏRİ

Əmlak məsələləri üzrə ekspert Ramil Qasımzadə də son vaxtlar xarici investorların Azərbaycanın əmlak sektoruna maraq göstərdiyini təsdiqləyir. Onun müşahidələrinə görə, hazırda həm Ukraynada, həm də Rusiyada biznesi olan iş adamları Azərbaycanın əmlak bazarı ilə maraqlanırlar: "Məsələn, tanıdığım bir şirkət var ki, hazırda yeni tikililərdə 30-40-a yaxın mənzil axtarışındadır. Bu investorların əksəriyyəti azərbaycanəsillidir. Amma İran, Pakistan kimi ölkələrdən olan investorlar da Azərbaycanın əmlak bazarına daxil olmaqda maraqlı görünürlər. Eyni zamanda, ərəb ölkələrinin investorları da bizim daşınmaz əmlak bazarı ilə maraqlanırlar. Onlar daha çox hazır binalara, biznes mərkəzlərinə investisiya yatırmaq istəyirlər. Bildiyiniz kimi, xarici vətəndaşlara torpaq satışı həyata keçirilmir. Amma hazır tikililərə xarici sərmayəli şirkətlərin investisiya yatırmasına heç bir məhdudiyyət yoxdur. Ona görə də bu istiqamətdə tələblər yüksəkdir".

Ekspert vurğulayıb ki, hazırda xarici sərmayəli tikinti şirkətlərinin Azərbaycanın tikinti bazarında birbaşa fəaliyyəti yoxdur. Onun sözlərinə görə, xarici tikinti şirkətləri bu sektorda yalnız podratçı qismində iştirak edirlər.

### TƏLƏBAT QEYRİ-YAŞAYIŞ SAHƏLƏRİNİ 3 DƏFƏ BAHALAŞDIRIB

R.Qasımzadənin sözlərinə görə, son vaxtlar həm yerli, həm də xarici investorların qeyri-yaşayış sahələrinə maraq göstərməsi əmlakın bu seqmentində qiymət artımına səbəb olub: "Məsələn, 2-3 il bundan əvvəl 1 kvadratmetri 5 000 manata təklif olunan qeyri-yaşayış sahələrinin kvadratmetri hazırda 15 000 manatdır. Yəni qiymətlər son 3 ildə təxminən 3 dəfə artıb. İlin birinci yarısı ilə müqayisədə indi qiymətlərdə 10 faiz əlavə artım müşahidə olunur. İnvestorlar daha çox Səbail, Nəsimi və Nərimanov kimi mərkəzi ərazilərə maraq göstərirlər".

## BAZARDA YENİLİKLƏR MEYDANA ÇIXACAQ



İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin sədri, iqtisadçı-ekspert Ruslan Atakişiyev hesab edir ki, əmlak sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və bu sahədə aparılan islahatlar yerli bazarı xarici investorlar üçün cəlbedici edib: "Bununla bağlı "yol xəritəsi" hazırlanıb və işçi qrupu yaradılıb. Əsas məqsəd də odur ki, Azərbaycanda bu sahədə maraqlı olan investorların qarşılaşdıqları bürokratik əngəllər qısa zamanda aradan qaldırıla bilsin. Bu istiqamətdə işlər davam etdirilir və ciddi nəticələr əldə olunub. Məsələn, artıq daşınmaz əmlakın qeydiyyata alınması, tikintinin həyata keçirilməsinə icazələrin verilməsi və s. asanlaşdırılıb. Bu addımlar da öz növbəsində xarici investorları cəlb edir".

Ekspert bildirib ki, Körfəz ölkələrindən investisiyaların əmlak bazarına daxil olması bu sektor üçün əlavə maliyyə mənbələrinin formalaşması deməkdir. Onun sözlərinə görə, bu investisiyalar əmlakın əldə olunması istiqamətində yeni formalar meydana çıxaracaq.

### XÜSUSİ TƏDBİRLƏR PLANINA EHTİYAC VAR

Əmlak məsələləri üzrə ekspert Nofəl Quliyev isə deyib ki, Azərbaycanın tikinti və əmlak sektorunda xarici investorlar məhdud saydadır: "Əslində xarici sərmayəli şirkətlərin Azərbaycana gəlməsi bizim xeyrimizədir. Bu, əmlak bazarının daha da inkişafına təkan verəcək. Əvvəllər Rusiyadan investorlar bizim tikinti və əmlak bazarına daha çox maraq göstərirdilər. İndi maraq nisbətən zəifləyib. Müşahidələr göstərir ki, xarici investorlar daha çox Türkiyə bazarına meyl göstərirlər. Etiraf edək ki, Türkiyənin tikinti və əmlak bazarına daxil olmaq xarici investorlar üçün daha cəlbedicidir".



Nofəl Quliyev

## "BU SEKTOR YERLİ BİZNESMENLƏRƏ YAXŞI GƏLİR QAZANDIRIR"



Cəfər İbrahimli

İqtisadçı-ekspert Cəfər İbrahimli bildirib ki, hər bir dövlət xarici investorları ölkəsinə cəlb etməkdə maraqlıdır: "Xarici investorun hər hansı bir ölkəyə gəlməsi həmin ölkə üçün əlavə dəyər yaradır. Son dönəmlər xarici investorların ölkəmizə marağının artması Azərbaycanın iqtisadiyyatı ilə bağlıdır. Çünki onlar beynəlxalq reytinq təşkilatlarının rəyini nəzərə alaraq hər hansı ölkəyə sərmayə yatırırlar".

İqtisadçının fikrincə, xarici sərmayədarların Azərbaycanın tikinti və əmlak bazarına maraq göstərməsi heç də təsadüfi deyil. Onun sözlərinə görə, ölkəmizdə bu sektor uzun illərdir ki, yerli biznesmenlərə yaxşı gəlir qazandırır: "Çünki bu sahədə tələb həddindən artıq çoxdur. Qarabağın işğaldan azad olunması ilə tələb daha da yüksəlib. Hazırda həmin ərazilərdə böyük yenidənqurma və infrastruktur işlərinin həyata keçirilməsi xarici investorların da diqqətini çəkir".

# QƏDİM TRAMVAYLAR VƏ QIRMIZI FASADLI BİNALAR ŞƏHƏRİ

Lissabonun küçə və meydanlarında qızardılmış şabalıdın qoxusu ətrafa yayılır. Milad bazarı Portuqaliyanın mədəniyyətinə, adət-ənənəsinə və mətbəxinə daha yaxından bələd olmaq üçün əla fürsətdir.













TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Lissabon dünyanın ən yaxşı yüz turizm məkanı arasında yeddinci yerdədir. Portuqaliyanın paytaxtına gələn səyahətçilərin sayı ildən-ilə artır. Turistləri ilin bütün fəsillərində mülayim iqlim, qədim tarix və yaddaqalan görməli yerlər cəlb edir.

## 28 NÖMRƏLİ TRAMVAY

Lissabonu kəşf etməyə başlamağın ən yaxşı yolu isə yeddi təpədən ibarət şəhərin arxa küçələrində dolaşmaqdır. Yaşlı insanların və tənbəl portuqal pişiklərinin pəncərələrdən bayıra baxdıqları köhnə evlərə, nostalji kafelərə və ya tarixi məhəllənin şərab barlarına rast gələcəksiniz. Klassik ekskursiya formatından uzaqlaşıb şəhərin dolama küçələrində hər şeyin necə ahəngdar olduğu sizi bir az da təəccübləndirəcək. Məftunedici Baixa, sirr dolu Alfama, Mouraria və Graça rayonlarında gəzərkən şəhərin keçmiş dövrləri ilə müasir həyat tərzi arasında xüsusi təzadı hiss etmək, romantik fadonun tarixini araşdırmaq, yerli əfsanələri eşitmək, dəbli kafelər haqqında məlumat əldə etmək imkanı yaranır.

Gəzməkdən yorulduğunuz zaman 28 nömrəli tarixi tramvaya minməklə dar küçələrdə dolaşmağın öz gözəlliyi var. Bu tramvay təkcə ictimai nəqliyyat deyil, həm də tam hüquqlu bir şəhər cazibəsidir. 1930-cu illər dövrünə aid kiçik sarı vaqon dar küçələrdə hərəkət edir və adətən açıq taxta pəncərələrində özçəkim (selfi) etmək istəyən səyahətçilərlə dolu olur. Məşhur tramvayda gediş haqqı digər tramvaylarda olduğu kimi üç avrodur. Tramvaylarla yanaşı, şəhərin üç yerində funikulyorlar 300 metr hündürlüyə qalxaraq turistlərə və yerli sakinlərə xidmət edir. Aşağı platformalı və qoşa vaqonlu müasir yüksək sürətli tramvaylar da şəhər ətrafında hərəkət edir, lakin onlar təpələrə qalxmır, ən yaxın şəhərətrafı qəsəbələrə və ya yeni tikililərə gedirlər. Lissabonda taksilər ucuzdur. Hava limanından mərkəzə gediş təxminən 10 avroya başa gəlir. Hava limanından mərkəzə avtobuslar da işləyir. Metronun qırmızı xətti də hava limanından sərnişinləri daşıyır. Şəhərdə ictimai nəqliyyatla hərəkət etməyin ən əlverişli yolu Navegante kartıdır. Onu metro stansiyalarındakı avtomatlardan və ya bilet kassalarından almaq olar. Kart metro, avtobus, tramvay, bərə, bir neçə yerli qatarda, funikulyorlarda və hətta məşhur Santa Justa liftində etibarlıdır.

## LİSSABONU NECƏ KƏŞF ETMƏLİ?

Lissabon adamı təkcə qədim tramvayları, funikulyorları, ağ-qara daşlarla döşənmiş səkiləri və meydanları, müşahidə meydançaları ilə deyil, həm də qırmızı fasadları olan binaları ilə təəccübləndirir. Müşahidə göyərtələrindən bu mənzərələri seyr etmək isə fərqli bir zövq verir.

Lissabonun kəşfini əsas meydanından - "Lissabon qapısı" kimi tanınan Praça do Comercio meydanından davam etdirmək, muzeylərə, kilsələrə, qalalara baş çəkmək olar. Qırmızı, sarı və yaşıl rəngli avtobuslar turistləri müxtəlif xətlər üzrə şəhər gəzintisinə aparır (22 avro). Paytaxtı yaxından tanımaq üçün turistik marşrutlar qədər nəqliyyat növləri də çoxdur. Şəhərdə bir neçə su marşrutları var. Tagus çayının o biri tərəfinə, Atlantik okeanına bərə ilə getmək maraqlı səyahətdir. Feribotlar Cais do Sodre metro stansiyasından və qatar stansiyasından yola düşürlər (5-6 avro).

Dünyanın ən məşhur liftlərindən olan Santa Justadan istifadə etməyə hər kəs tələsir. Uzun növbədən sonra attraksiona daxil olursan. Neo-qotik üslubda orijinal tikinti 1902-ci ildən şəhəri bəzəyir. Lissabon təpələrində dayananlar üçün lift əvvəlcə nəqliyyat vasitəsi, yalnız bundan sonra attraksion kimi xidmət edir: iki geniş kabin ziyarətçiləri 30 metr hündürlüyə - tarixi küçəyə qaldırır və Karmelit Monastırına gətirir. Bu, 1755-ci ildə zəlzələ zamanı zədələnmiş və heç vaxt bərpa olunmayan qədim kilsənin xarabalıqlarıdır. İndi içəridə arxeologiya muzeyi var.

Tez-tez okeana səyahət etməyi planlaşdıranlar Lissabonun Belem şəhərətrafı ərazisinə yollanırlar. Bu, şəhərin varlı insanlarının yaşadığı, villalarla əhatələnmiş ərazisidir. Burada cəmləşmiş çoxlu gözəl attraksion, geniş və yaşıl park, simvolik kafe və restoranlar var.

## ŞADLIQ RUHU VƏ BAYRAM MƏDƏNİYYƏTİ




Hər il İsa Məsihin doğulması bütün xristian dünyasında əsasən 25 dekabrda keçirilən bayram kimi qeyd olunur. Bu münasibətlə dünya ölkələrində Milad (Christmas) bazarları dinindən asılı olmayaraq milyonlarla insanı da ətrafına toplayır.

Lissabonda Milad 15-22 dekabr tarixlərində qeyd edilir. Bu bayram şəhərdə ilin ən gözəl vaxtıdır. İnsanlar bu tarix üçün paytaxta xüsusi səyahət edirlər. Lissabon Milad bazarları şəhərin hər tərəfində açılır, şadlıq ruhu və bayram mədəniyyəti nümayiş etdirilir.

Bu il də Portuqaliyanın paytaxtı Milad bayramını qeyd etmək üçün "yolka"larla, işıqlarla bəzədilib. Meydanda qurulan yarmarkada müxtəlif şirkətlər öz məhsullarını təqdim edirlər. Şəhər sakinləri və turistlər yaxınları üçün hədiyyələr almaq, işıqları seyr etmək, isti şokolad, məşhur portuqal şərabı və ənənəvi kofe içmək üçün şəhərin meydanında qurulan Milad marketinə axın edirlər. Frenk Sinatranın "Yeni iliniz xoşbəxt olsun" ("Merry Christmas") mahnısı insanları həzin melodiyası ilə yarmarka boyu müşayiət edir.

Portuqaliyanın bütün bölgələrində olduğu kimi, Lissabonda da küçə və meydanlarında qızardılmış şabalıdın qoxusu ətrafa yayılır. Milad bazarı Portuqaliyanın mədəniyyətinə, adət-ənənəsinə və mətbəxinə daha yaxından bələd olmaq üçün əla fürsətdir.



Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
7 DEKABR ŞƏNBƏ 2024
kaspi.az



# “LİVERPUL”DA SLOT ERASI

Mersisayd təmsilçisinin rəhbərliyi yeni baş məşqçi seçimi zamanı risk etdi. Komanda daha əvvəl Niderlanddan kənarda işləməmiş 46 yaşlı Arne Slotu bu posta gətirdi. Lakin nəticələr göz qamaşdırır.

Avropada futbol mövsümünün erkən mərhələsində performansı ilə ən çox diqqət çəkən komanda “Liverpul”dur. Mersisayd təmsilçisi həm İngiltərə Premyer Liqasında, həm də Çempionlar Liqasında qarşısıalınmazdır. Niderlandlı Arne Slotun baş məşqçisi olduğu komanda mövsümün startından bəri cəmi bir dəfə məğlubiyyətlə üzləşib. Hazırda “Liverpul” Avropada ən formada olan klub hesab olunur.

### POST-KLOPP DÖNƏMİ: RİSKLİ SEÇİM

Ötən yay Yurgen Klopp doqquz illik fəaliyyətini başa vuraraq “Liverpul”un baş məşqçisi postunu tərk etdi. “Qırmızılar”ı çalışdırdığı dönəmdə komandanı çöküşdən xilas edən və Premyer Liqanı, Çempionlar Liqasını qazanan almaniyalı mütəxəssisdən sonra komandanın gələcəyi ilə bağlı suallar yaranmışdı. Doğrusu, post-Klopp dövrünün sancılı keçəcəyi, “Liverpul”un zəifləyəcəyi proqnozlaşdırılırdı.

Mersisayd təmsilçisinin rəhbərliyi yeni baş məşqçi seçimi zamanı risk etdi. Daha əvvəl Niderlanddan kənarda işləməmiş 46 yaşlı Arne Slotu bu posta gətirdi. O, məşqçi kimi son klubu “Feyenoord”da ölkə çempionluğu, ölkə kubokunun qalibi, Konfrans Liqasının finalçısı kimi müəyyən nəticələr əldə etmişdi. Lakin bu, “Liverpul” kimi komandaya baş məşqçi təyin edilməsinə skeptik yanaşmalara mane olmurdu.

### NƏTİCƏLƏR GÖZ QAMAŞDIRIR

Klub rəhbərliyinin riskli seçimi özünü tez doğrultdu. Premyer Liqada 13 turdan sonra “Liverpul” turnir cədvəlinin şəriksiz lideridir. Cəmi bir dəfə məğlub olan və iki oyunda heç-heçəyə razılaşan komanda 11 qələbə əldə edib. 35 xala sahib “Liverpul” ən yaxın izləyiciləri - “Arsenal” və “Çelsi”ni 7 xal üstələyir. Bu, mövsümün bu mərhələsi üçün kifayət qədər böyük fərq hesab olunmalıdır. 29 qolla ən çox fərqlənən komandalardan olan “qırmızılar” qapısında cəmi 11 top görüb ki, bu da ən yaxşı göstəricidir. Çempionlar Liqasındakı nəticələr isə daha gözqamaşdırıcıdır. Arne Slotun komandası qitənin bir nömrəli klub turnirində keçirdiyi beş oyunun hamısında qalib gəlib və 15 xalla turnir cədvəlinin vahid lideridir. Burada komanda cəmi bir qol buraxıb ki, bu da qapısında top görməyən “İnter”dən sonra ən yaxşı göstəricidir. Eyni zamanda, Mersisayd təmsilçisi son oyunda turnirin hazırkı qalibi “Real Madrid”i öz meydanında 2:0 hesabı ilə məğlub etməklə iddiasını ortaya qoyub. Premyer Liqada isə eyni hesabla əsas rəqiblərdən biri olan “Mançester Siti” üzərində əldə edilən qalibiyyət “Liverpul”un çempionluğa bir nömrəli namizəd olduğunu düşünməyə əsas verir.

## EYNİ HEYƏT, DƏYİŞƏN FƏLSƏFƏ

Slot faktiki olaraq icraçıları dəyişməyib. “Liverpul” yay transfer pəncərəsi zamanı heç də ən aktiv komandalardan deyildi. “Valensiya”dan qapıçı Georgi Mamardaşvili və pəncərənin son günündə “Yuventus”dan Federiko Kyeza heyətə cəlb edildi. Gürcü qolkiper sonradan icarəyə verildi, italyan vinger isə adəti üzrə zədəlidir. Yəni Slot faktiki olaraq Yurgen Kloppun heyətindən istifadə edir. Sadəcə, o, futbolçuların potensialından maksimum yararlanması ilə diqqət çəkir. Slotun oyun fəlsəfəsinə gəlincə o, “Feyenoord”da qurduğu taktiki sistemə sadiqdir. Kloppun yüksək pressinq üslubundan fərqli olaraq, Slot topun daha ağıllı və strateji istifadəsini ön planda saxlayır. Bu yanaşma, xüsusilə, yarımmüdafiə xəttində öz bəhrəsini verir. Dominik Soboslay və Aleksis Makallister kimi oyunçuların yaradıcı potensialı bu sistemdə tamamilə açılıb. Onun fəlsəfəsi Məhəmməd Salahın ümumi oyun strukturunda rolunu artırıb. Darvin Nunyes bu mövsüm böyük inkişafdadır. Onun Slotun sisteminə uyğunlaşması hücum xəttinin daha balanslı və təhlükəli görünməsini təmin edib. Luis Diaz və Dioqo Jota kimi oyunçuların müxtəliflik yaradan manevrləri isə rəqib müdafiələri çətin vəziyyətdə qoyur.

Yarımmüdafiədəki dinamiklik və dayanıqlılığı isə müdafiə xəttindəki balans və intizam tamamlayır. Slotun ən güclü tərəfi də məhz müdafiənin etibarlılığını təmin edə bilməsidir.

## Şəxsi münasibətlər qurmaqda usta

Slotun “Liverpul”da bu qədər uğurlu olmasının səbəbi yalnız onun taktiki biliyi deyil. O, futbolçularla şəxsi münasibətlər qurmaqda ustadır. Hər bir oyunçunun güclü tərəflərini aşkar edib, onları komandanın ümumi maraqlarına uyğun şəkildə istifadə etməyi bacarır. Niderlandlı mütəxəssis psixoloji hazırlığa xüsusi diqqət yetirir və bu, komandanın çətin oyunlarda inamını qoruyub saxlamasına kömək edir.



Arne Slotun rəhbərliyi altında “Liverpul” olduqca möhkəm görünür. Onun taktikası, oyunçuların inkişafı və komandanın ümumi harmoniyası “Liverpul”un son illərdəki ən güclü mövsümlərindən birini yaşamasını təmin edir. Slotun yaratdığı bu yeni dövr həm azarkeşlər, həm də futbol dünyası üçün xüsusi maraq doğurur.

Slot erasının gələcəyi “Liverpul”un nə qədər sabit performans göstərəcəyindən asılı olacaq. Bu mövsüm yaxşı fürsət də var. Premyer Liqada “Mançester Siti” eniş dövrünü yaşayır, “Arsenal” heç cür favorit statusunu ala bilmir. Çempionlar Liqasında isə “Real Madrid” əvvəlki qədər qorxulu deyil, “Bavariya”, “Barselona” kimi komandalar çalxantılarla üz-üzədirlər. Bu mövsüm qazanılmaq ehtimalı yüksək olan nailiyyətlər futbol məşqçiliyində yeni bir eranın başlanması ilə nəticələnə bilər.